

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET №116 (7371) / Çərşənbə axşamı, 2 iyul 2019-cu il


# "Bakı Prosesi" artıq qlobal platformaya çevrilib



Prezident İlham Əliyev UNESKO-nun Baş direktoru Odre Azulenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

Bax: səh. 2

## Birinci vitse-prezidenti Mehriban Əliyeva müddətli həqiqi hərbi xidmət qulluqçularının ehtiyata buraxılması mərasimində iştirak edib

Bax: səh. 3







## Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası işə başlayıb

*Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sessiyanın açılış mərasimində iştirak edib*

Bax: səh. 4-5

## Azərbaycan-Özbəkistan münasibətləri yüksək səviyyədədir

Bax: səh. 6



## TANAP Avropaya qaz nəqli üçün tam hazırdır

Bax: səh. 7



## KİV rəhbərlərinin Moskvaya səfəri başlayıb

Bax: səh. 9




8 Ədliyyə fəaliyyəti dövlətimizin başçısının tapşırıqlarına uyğun təkmilləşir

11 Bakı Ali Neft Məktəbinin tələbələri xaricdə ixtisasartırma kurslarına göndəriləcək

13 Üç təhlükəsizlik şefinin Qüds görüşü: ziddiyyətli məqamların gizli və aşkar tərəfləri

# Qəbələdə yol tikintisinə 12,7 milyon manat ayrılıb



Prezident İlham Əliyev Qəbələ rayonunun Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, on min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 12,7 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

Nazirlər Kabinetinə tapşırılır ki, bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# “Bakı Prosesi” artıq qlobal platformaya çevrilib

## PREZİDENT İLHAM ƏLİYEV UNESKO-NUN BAŞ DİREKTORU ODRE AZULENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB



İyunun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev UNESKO-nun Baş direktoru xanım Odre Azulenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətinə toxunuldu, dünyada bu tədbirə böyük marağın olduğu qeyd edildi.

UNESKO-nun Baş direktoru xanım Odre Azule Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi töhfəni yüksək qiymətləndirdi və ölkəmizdə mədəni və tarixi irsin qorunması və təbliği istiqamətində görülən işlərin əhəmiyyətini qeyd etdi. Xanım Odre Azule Azərbaycanın Elm Muzeyinin təsis edilməsi təşəbbüsünə UNESKO-nun dəstək verdiyini bildirdi.

Mədəniyyətlərarası dialoqa toxunan dövlətimizin başçısı “Bakı Prosesi”nin artıq böyük qlobal platformaya çevrildiyini və müxtəlif beynəlxalq təşkilatlar tərəfindən dəstəkləndiyini dedi. Prezident İlham Əliyev bildirdi ki, ölkəmizdə mədəni və təbii irsin qorunması gündəlikdə duran ən önəmli məsələlərdən biridir.

Söhbət zamanı Azərbaycan ilə UNESKO arasında elm və təhsil sahələrində əməkdaşlığın inkişafından məmnunluq ifadə edildi, bu sahədə UNESKO-nun xətti ilə həyata keçirilən layihələrin önəmi vurğulandı.

# Azərbaycan-UNESKO əməkdaşlığı bir çox sahələrdə uğurla inkişaf edir

## Birinci vitse-prezident Mehriban Əliyeva UNESKO-nun Baş direktoru xanım Odre Azule ilə görüşüb





**İyunun 30-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Azərbaycanda səfərdə olan UNESKO-nun Baş direktoru xanım Odre Azule ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında iştirak etmək üçün ölkəmizə gəldiyinə görə UNESKO-nun Baş direktoru Odre Azuleyə minnətdarlığını bildirdi. Təşkilatın Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətini vurğulayan UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Odre Azulenin həmin tədbirə diqqətinin bu sessiyanın uğurla keçəcəyinə mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi. Mehriban Əliyeva Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın bir çox sahələrdə - mədəniyyət, elm, təhsil və digər istiqamətlərdə çox uğurla inkişaf etdiyini məmnunluqla vurğuladı. “Bütün bu illərdə birgə keçirilən toplantılarda, böyük beynəlxalq tədbirlərdə UNESKO ailəsinin üzvü olmaq mənim üçün çox xoşdur, böyük şərəfdir”, - deyən Mehriban Əliyeva bu il əməkdaşlığımızın 27-ci ildönümünün qeyd edildiyini bildirdi, dünya mədəniyyət irsinin qorunmasında gələcəkdə də çox uğurlu əməkdaşlıq quracağımıza əminliyini ifadə etdi. UNESKO-nun xoşməramlı səfiri onu da bildirdi ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra mədəni, tarixi və dini irsin qorunması Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilib və son illərdə Azərbaycanda UNESKO-nun tərəfdaşlığı ilə bir sıra möhtəşəm beynəlxalq forumlar, tədbirlər uğurla təşkil edilib. UNESKO-nun Baş direktorunun ölkəmizə səfərinin uğurlu keçəcəyinə əminliyini ifadə edən Mehriban Əliyeva ümidvar olduğunu bildirdi ki, bu səfər çərçivəsində Odre Azule Azərbaycanla, paytaxtımızla daha yaxından tanış olacaq və xalqımızın qonaqpərvərliyini hiss edəcək.

UNESKO-nun Baş direktoru Odre Azule Parisdə təşkilatın baş qərargahında Mehriban Əliyeva ilə görüşünü xatırladı və UNESKO üçün ən mühüm tədbir olan Ümumdünya İrs Komitəsinin növbəti sessiyasının üzv dövlətlər arasında məhz Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirdi. UNESKO-nun Baş direktoru növbəti günlərdə bütün ölkələrin nümayəndələrinin Bakıda bir araya gələrək dünya irsinin qorunması üçün görülməsi vacib olan tədbirləri müzakirə edəcəklərini vurğuladı. Odre Azule UNESKO üçün mühüm əhəmiyyət kəsb edən və 2500-ə yaxın iştirakçının qatılacağı bu sessiyanın Azərbaycanda keçirilməsinə görə təşəkkürünü bildirdi.

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və UNESKO-nun Baş direktoru Odre Azule birgə nahar etdilər.

# Birinci vitse-prezidenti Mehriban Əliyeva müddətli həqiqi hərbi xidmət qulluqçularının ehtiyata buraxılması mərasimində iştirak edib

















**İyulun 1-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət qulluqçularının ehtiyata buraxılması mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva iştirak edib.

"Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Prezident İlham Əliyevin 2019-cu il 3 iyun tarixli Sərəncamına uyğun olaraq Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması mərasimi keçirilib.

Mərasim əsgərlərin meydana gəlməsi ilə başladı.

Sonra döyüş bayrağı meydana gətirildi.

Xidməti vəzifələrin icrası zamanı fərqlənən əsgərlərə Fəxri Fərman, xatirə hədiyyələri və valideynlərinə təşəkkür məktubları təqdim olundu.

Bu günün Dövlət Təhlükəsizliyi Xidmətinin Əlahiddə Alayının şəxsi heyəti üçün əlamətdar gün olduğunu deyən Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Əli Nağıyev həqiqi hərbi xidməti başa vuran əsgərləri və onların valideynlərini təbrik etdi, hərbi xidmət zamanı əsgərlərin hərbin sirlərinə dərindən yiyələndiklərini vurğuladı. Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrin bütün qoşun növlərində olduğu kimi, bu hərbi hissədə də xidmətin yüksək tələblər səviyyəsində təşkili üçün hərtərəfli şəraitin yaradıldığını bildirdi.

Dövlət Təhlükəsizliyi Xidmətinin Ulu Öndərin yadigarı olmaqla Azərbaycan dövlətçiliyinin qorunması üçün xüsusi önəm daşıdığını bildirən xidmət rəisi Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində əldə olunan nailiyyətlərdən danışdı. Qeyd etdi ki, Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu işğal altındakı torpaqların azad edilməsi uğrunda döyüşə hər an hazırdır.

Sonra dövlət himni səsləndirildi.

Daha sonra şəxsi heyət təntənəli marşla tribunanın önündən keçdi.

Bu gün Azərbaycan Ordusunda xidmət edən hər bir gənc böyük şərəf hissi ilə hərbin sirlərinə yiyələnir. Vətəni müdafiə etmək kimi şərəfli və məsuliyyətli işin öhdəsindən layiqincə gələn əsgərlərimiz dünyanın ən qüdrətli ordularından birində xidmətləri ilə qürur duyurlar. Bu gün Azərbaycan Ordusu müasir silah-sursat təminatına və maddi-texniki bazasına görə dünyada lider yerlərdən birini tutur. Amma ən əsas məsələ müstəqil ölkəmizin ordusunda xidmət edən hərbçilərdə olan Vətənə bağlılıq, Vətən sevgisi və ruh yüksəkliyidir. Üzərinə düşən vəzifələri lazımi səviyyədə icra etməyə qadir olan Azərbaycan əsgəri doğma torpağını, xalqını və dövlətini sonsuz məhəbbətlə sevir və Vətən uğrunda canından belə keçməyə hazırdır.

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva tədbirdə iştirak edən valideynlərlə görüşdü, onlarla söhbət etdi.





# Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası işə başlayıb

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sessiyanın açılış mərasimində iştirak edib





*İyunun 30-da Bakıda, Heydər Əliyev Mərkəzində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimi keçirilib.*

*AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva mərasimdə iştirak edib.*

*Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunması və təbliği ilə yanaşı, beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək verməkdir. Bu məqsədlə ölkəmiz müstəqilliyini bərpa etdiyi vaxtdan UNESKO ilə sıx əməkdaşlıq münasibətləri qurub və təşkilatın fəaliyyətinə öz töhfəsini verib. 2013-cü ildə UNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına uğurla ev sahibliyi edən Azərbaycanda eyni müvəffəqiyyətlə hər iki ildən bir UNESKO-nun rəsmi tərəfdaşlığı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən Azərbaycan bu mötəbər qurumun növbəti sessiyasına ev sahibliyi etmək hüququ əldə edib. Azərbaycan üçün mühüm əhəmiyyətə malik belə bir qərarın qəbul olunması ölkəmizin UNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Prezident İlham Əliyev iyunun 30-dan iyulun 10-dək davam edəcək sessiyanın Bakıda layiqincə keçirilməsini təmin etmək məqsədilə müvafiq Sərəncam imzalayıb. Bununla da UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda yüksək səviyyədə keçirilməsi təşkil olunub.*

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə çıxış etdi.*



### Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı







-Hörmətli xanım Baş direktor.
Zati-aliləri.
Xanımlar və cənablar.
Əziz dostlar, hörmətli qonaqlar.

UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimində bu gün sizinlə burada olmaqdan çox şadam. Sizin hamınızı Bakıda - Şərq ilə Qərbin, keçmişlə gələcəyin qovuşduğu şəhərdə, zamanların və sivilizasiyaların nadir ahəngdarlığını göstərən mühitdə salamlamaqdan məmnunam. Bizim üçün bu cür mühüm toplantını qəbul etmək böyük şərəfdir və mən sessiyaya uğurlar arzulayıram.

Mən UNESKO-nun Baş direktoru xanım Odre Azuleyə xüsusi olaraq minnətdaram və əminəm ki, onun burada olması bu tədbirə xüsusi dəyər qatacaq. UNESKO-nun xoşməramlı səfiri kimi, mən bu gün burada bütün UNESKO ailəsinin üzvlərini salamlamaqdan çox şadam.

Bu ayın əvvəlində biz Azərbaycanın UNESKO-dakı üzvlüyünün 27-ci ildönümünü qeyd etdik. Bu illər ərzində biz mədəniyyət, təhsil, elm, kommunikasiya, gənclər və idman kimi bir çox sahələrdə uğurlu əməkdaşlıq qura bildik. Bu gün biz fəal təmsilçilik və verdiyimiz töhfələrlə UNESKO-nun proqramlarında iştirak edirik. Dünyanın mədəni irsinin qorunması Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın əsas istiqamətlərindən biridir. Eyni zamanda, bizim tarixi, dini və memarlıq abidələrimizin qorunması, bərpası və saxlanması Azərbaycanın dövlət siyasətinin mərkəzində dayanır.

2001-ci ildə dövlət tərəfindən qorunan 6600-dən artıq mədəniyyət abidəsini əhatə edən Milli-Mədəni İrs Siyahısı qəbul edilmişdir. Son 5 il ərzində Azərbaycanda 40 tarixi abidə bərpa edilmişdir. Həmçinin qeyd etmək istərdim ki, Abşeron yarımadasında tapılmış tarixi abidələri və arxeoloji eksponatları özündə əks etdirən açıq səma altında "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksi 2008-ci ildə açılmışdır. Bakıda, Ağcabədidə və Ağdamda muğam mərkəzlərinin tikintisi, məscidlərin, sinaqoqların və kilsələrin yenidən qurulması və inşası, muzeylərin bərpası və açılması - bütün bunlar Azərbaycanın müxtəlif mədəni irsinin qorunması üçün dövlətimizin siyasətinin sadəcə bir neçə elementidir.

UNESKO ilə məhsuldar əməkdaşlığın nəticəsi olaraq Azərbaycanda iki sahə - İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir. Zəngin və qədim mədəniyyətimizin digər mühüm elementləri sırasında musiqi xəzinəmizin inciləri - muğam və aşıq sənəti, həmçinin bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilmişdir.

Azərbaycanın UNESKO-nun dəyərlərinə və ideallarına bağlılığı onun milli hüdudlarından kənarda da öz təzahürünü tapır. Son 10 il ərzində dünya mədəni irsin qorunması sahəsində apardığımız fəaliyyətin coğrafiyası geniş olmuşdur. Bununla belə, müharibələr və hərbi münaqişələr bəşəriyyətin mədəni irsinə hər zaman ciddi təhdid olmuşdur. Hərbi təcavüz nəticəsində, eləcə də beynəlxalq hüququ və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini kobud şəkildə pozaraq Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizini, o cümlədən Dağlıq Qarabağı və yeddi ətraf regionu bu gün də işğal altında saxlamaqda davam edir. Bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Yüzlərlə tarixi və memarlıq abidəsi, muzeylər, məscidlər və digər dini məbədlər dağıdılıb, yaxud ciddi dağıntıya məruz qalıb. Bu səbəbdən Azərbaycan mədəniyyət mülkiyyətinin qorunmasına aid müvafiq beynəlxalq konvensiyaların səmərəli icrasında çox maraqlıdır. Düşünürəm ki, bu sahədə görüləcək işlər hələ də çoxdur və UNESKO bu baxımdan mühüm rol oynamalıdır.

Əziz dostlar, mədəni irs bizi bəşəriyyətin şanlı tarixinə aid olduğumuzu birlikdə düşünməyə vadar edir. Biz qəti şəkildə inanırıq ki, sülh mədəniyyətinin toxumları yalnız dialoq və qarşılıqlı hörmət vasitəsilə cücərə bilər. Mən burada mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi üçün əsl qlobal platformaya çevrilmiş və Azərbaycanın başladığı "Bakı Prosesi"ni xatırlatmaq istəyirəm. 2008-ci ildə Bakıda ilk dəfə başlanmış beynəlxalq konfrans Avropa Şurasının üzv dövlətlərinin mədəniyyət nazirlərini ümumi narahatlıq doğuran məsələlər ətrafında dialoqa başlamaq üçün İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətlərindən olan həmkarları ilə bir masa arxasında topladı. Ötən ay biz "Bakı Prosesi" çərçivəsində V Dünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi etdik. Məmnunuq ki, UNESKO həmin mühüm təşəbbüsdə bizim əsas tərəfdaşımızdır. Xanım Baş direktor, verdiyiniz mühüm şəxsi dəstəyinizə görə sizə minnətdaram.

Bu toplantının işinə böyük uğurlar arzulayaraq, yekunda XII əsrin böyük Azərbaycan memarı və filosofu Memar Əcəminin sözlərinə istinad edərək demək istərdim: "Biz gedərik, ancaq qalar ruzigar, biz ölərik əsər qalar yadigar".

Bir daha Azərbaycana xoş gəlmisiniz. Sağ olun.

* * *

⇨ Davamı 5-ci səhifədə

# Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası işə başlayıb

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sessiyanın açılış mərasimində iştirak edib

⇨ Əvvəli 4-cü səhifədə



**UNESKO-nun Baş direktoru Odre AZULE çıxış edərək dedi:**

-Hörmətli Birinci vitse-prezident Mehriban xanım Əliyeva.

-Hörmətli UNESKO-nun İcraiyyə Şurasının sədri.

Xanımlar və cənablar.

Cənab nazirlər, hörmətli dostlar və həmkarlar.

Bu gün biz Bakı şəhərinə UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına toplaşmışıq. Bakı dünyəvi bir şəhərdir, zəngin tarixə, UNESKO-nun Ümumdünya Mədəni İrs Siyahısına daxil olan sahələrə malikdir. Bu gün axşam biz bütün dünyanın müxtəlif yerlərindən paytaxt şəhərinizə, buraya toplaşmışıq. Əslində bunun bir tarixçəsi var. Bu, bizi bir araya gətirən dəyərlərə, ümumi tariximizə, bölüşdüyümüz məqamlara bağlıdır. Tarix boyu bəşər övladı yaşayıb, yaratmışdır. Biz müxtəlif təkamül yolu ilə inkişaf edərək yeni üfüqlərə çıxmışıq.

Artıq biz yeni minillikdə, belə möhtəşəm sarayda - memar Zaha Hadidin dizaynına, onun üslubuna uyğun yaradılmış bir sarayda toplaşmışıq. Mən Azərbaycan Respublikasının rəhbərliyinə səmimi qonaqpərvərliyə və üzv dövlətlər üçün yaradılmış bu şəraitə və xüsusi mühitə görə təşəkkürümü bildirirəm. Çünki biz hər il xüsusi bir an yaşayırıq. Dünya miqyasında biz öz toplantımızı təşkil edərək, burada müxtəlif namizədlikləri nəzərdən keçiririk. Biz UNESKO olaraq multilateralizm mövqeyindən çıxış edərək ümumi arzularımızı ifadə edirik. Burada həm Birləşmiş Ştatları, Çini, İranı, Rusiyanı, Burkina-Fasonu, həm də Böyük Britaniya və bütün digər dünya dövlətlərini narahat edən məsələləri müzakirə edirik. Bu, onu göstərir ki, məhz mədəni irsə gəldikdə bütün dünya ölkələri bu məsələləri birgə müzakirə edir. Bu gün biz müzakirə edəcəyimiz məsələlərin siyahısını hazırlamışıq. Bu, kifayət qədər böyük bir siyahıdır. Biz bu gün bir məqsədlə toplaşmışıq ki, universal dəyərə malik olan sahələr haqqında söhbət aparaq. Son zamanlar biz Rio muzeyində, həmçinin Parisdəki Notr-Dam kilsəsində dağıdıcı yanğınların şahid olduq. Bu hadisələr baş verdikdən sonra biz görürük ki, dünya mədəni irsi nə qədər həssas vəziyyətlərlə üzləşir. UNESKO ilk cərgələrdə gedərək beynəlxalq həmrəyliyin təzahürüdür. Biz bu gün sülh istəyirik, istəyirik sülh qurulsun.

Xanımlar və cənablar, hörmətli Ümumdünya İrs Komitəsinin üzvləri, bu gün siz konvensiyadan çıxış edərək öz fəaliyyətinizi aparacaqsınız. Sizin hamınıza rəsmi məktubumuzu ünvanlamışıq ki, biz burada bərabərlik nöqteyi-nəzərindən çıxış etməliyik. Biz əldə etdiyimiz nəticələri çoxaltmalıyıq. Biz tam zəmanət verməliyik ki, gələn 10 gün ərzində birgə işləyək, müzakirələr aparaq. Elə nailiyyətlər əldə edək ki, dünya mədəni irsi öz müxtəlifliyi ilə qorunsun, saxlanılsın. Bu baxımdan hər bir kəs - istər azlıq, istər çoxluq universal dəyərlərə öz töhfəsini verməlidir.

UNESKO bu yaxınlarda Mosul şəhərində saraylardan birində böyük bir toplantı keçirdi. Orada dağıntıya məruz qalmış, lakin tarixi əhəmiyyətə malik olan abidələrlə bağlı geniş müzakirələr aparıldı. Biz gördük ki, bunun çox böyük təsiri oldu. Biz, həmçinin bu ruhda vasitəçilik missiyası ilə Yaxın Şərqdə çıxış etmişik. Bunun sayəsində bizim İcraiyyə Şuramız, hər hansı bir komitəyə daxil olan qurum öz səylərini göstərir. Mən İsrail, İordaniya və Fələstin nümayəndə heyətlərinə təşəkkürümü bildirirəm ki, onlar dialoqu bərpa etmək üçün özlərində güc tapdılar. Qarşımızda bu gün elə layihələr var ki, o layihələr hamı tərəfindən bölüşülür və qəbul edilir. Hesab edirəm ki, atılan belə əhəmiyyətli addımlar bundan sonra da davam etdirilməlidir və onlar universal mədəni irsin qorunmasına yönəlmәlidir.

Qeyd etdiyimiz mədəni irs haqqında, onun qorunması ilə bağlı Konvensiya bizim hamımıza nəinki fayda gətirir, o, həmçinin bizim bu sahədə apardığımız elmi araşdırmalara bir istiqamətdir. Bu gün bu sahədə qəbul edilən qərarlar ekspert biliklərinə, həmrəyliyə, dialoqa əsaslanır. Əminəm ki, siz yaxşı mühitdə konsensus əsasında müxtəlif məsələlərlə bağlı müsbət həll variantlarını tapa biləcəksiniz.

Mən istərdim ki, bizim fəaliyyətimizə inam olsun, bu fəaliyyət universal xarakter daşısın. Bildiyiniz kimi, öz uzun tarixinə, öz təbii və mədəni irsinin müxtəlifliyinə baxmayaraq, Afrika qitəsi yenə də zəif şəkildə təmsil olunur. İstərdik ki, onların mədəni irsi daha yaxşı şəkildə qorunsun və təmsil olunsun. Bu, bizim ümumi tarixdə öz izini qoyacaq. Beynəlxalq həmrəylik daha yüksək sürətlə formalaşdırılmalıdır. Məmnunluq hissi ilə deyə bilərəm ki, bu məqsədlər üçün dünya səviyyəsində dəstəyi formalaşdıra bildik.

Xanımlar və cənablar, biz üzərimizdə bu öhdəliyi hiss edirik. Bu, dünya mədəni irsinə aiddir. Əfqanıstanda, Yəməndə, Suriyada, İraqda və bir sıra digər yerlərdə misallar var. Qürur hissi ilə bildiririk ki, bizim aramızda həmrəylik qurulub. Bu, müxtəlifliyin qorunmasına yönəldilib. Dünya mədəni irsi, həmçinin hədəf kimi də seçilə bilər, qeyri-düzgün şəkildə idarəçiliyə məruz qala bilər. Mədəni və təbii irsin qorunması ilə bağlı Konvensiya ola bilsin ki, dünyada ən çox tanınan normativ hüquqi sənəddir. Normativ hüquqi sənəd olaraq o, bizim hamımızın üzərinə vəzifə və eyni məqsəd qoyur ki, biz yüzlərlə abidəni artıq məlum olan təcrübələr əsasında qorumalıyıq və mühafizə etməliyik.

Bu fürsətdən istifadə edərək mən dünya əhalisinə, xüsusən də gənclərə səslənirəm. Qeyd etmək istəyirəm ki, onlar bütün proseslərə qatılmalıdırlar. Nəinki bu işləri aparmalıdırlar, həmçinin bu sahədə təşviqat işlərində iştirak etməlidirlər, təhsillərini daha da artırmalıdırlar. Bununla bağlı bizdən konkret tədbirlərin görülməsi tələb olunur. Çünki tarix onu göstərib ki, biz bu sahədə dayanmadan işləməliyik.

Mən burada bir gənc qıza söz vermək istəyirəm. Onun doqquz yaşı var. Mən onu kürsüyə dəvət edirəm. O, sizinlə öz duyğularını bölüşmək, öz fikirlərini izah etmək istəyir. O, bir poema müəllifidir və istərdim ki, onu sizə təqdim etsin. Bu da universal dəyərə malik olan dünya mədəni irsinə aid yazıdır. Mən sözü gənc qıza vermək istəyirəm. Sizin hamınıza uğurlu iş arzulayıram.

Doqquz yaşlı uşaq: Hamınıza axşamınız xeyir olsun deyirəm. Çox sağ olun ki, mənim üçün belə bir fürsət yaratdınız. Əhmədabad mənim şəhərim, mənim irsimdir. Bu, yazdığım kitabın adıdır. O kitabda çox maraqlı fotoşəkillər də var. Mənim şəhərimə ithaf olunub. Şəhərimdə olan çox qədim, 600 illik tarixə malik mədəni abidələrin tarixçəsi burada məni həvəsləndirdi ki, bu kitabı yazım. Bundan irəli gələrək mən tarixçəmi 1411-ci illə başladım. Həmin vaxt şəhərimiz yaradıldı. Burada olan məkan Sultan Əhməd Şaha çox böyük təssürat bağışladı. Beləliklə, o, bu möcüzəli məkanda yeni bir şəhəri yaratmaq qərarına gəldi. Mən kitabda öz poemamı əks etdirmişəm. İstərdim kitabımı UNESKO-nun Baş direktoruna hədiyyə olaraq təqdim edim. Altı yüz il öncə bu tarixçə başlayıb. Şəhərimdə möcüzə ağacı bitir. O, öz şan-şöhrətini qoruyub saxlaya bilib. Bu gün bir quş onun budaqlarında əyləşərək bizim canlı irsimizin mahnısını ifa edir.

Sağ olun.

* * *







*Sonra UNESKO-nun İcraiyyə Şurasının sədri Byonq-Hyun Li və Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının sədri, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək sessiyada müzakirə olunacaq məsələlərin və qəbul ediləcək qərarların çox əhəmiyyətli olacağını bildirdilər.*

*Daha sonra Azərbaycan incəsənət ustalarının maraqlı konsert proqramı təqdim olundu.*

## Ali Məclisin Sədri Ukrayna səfiri ilə görüşüb



İyulun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevski ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri səfiri muxtar respublikada görməkdən məmnunluğunu ifadə edib.

Vladislav Kanevski Naxçıvana səfərə mühüm əhəmiyyət verdiklərini bildirib, göstərilən diqqətə görə minnətdarlıq edib. Ölkələrimiz arasındakı ikitərəfli münasibətlərdən danışan səfir Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafını bu baxımdan mühüm amil kimi dəyərləndirib, qarşıdakı dövrdə səylərini artıracağını bildirib.

Ali Məclisin Sədri blokada şəraitində yaşamasına baxmayaraq, Azərbaycanın Naxçıvan Muxtar Respublikasında tələbatın yerli istehsal hesabına ödənildiyini və ərzaq təhlükəsizliyinin təmin olunduğunu diqqətə çatdırıb. Naxçıvan Muxtar Respublikası ilə Ukrayna arasında iqtisadi-ticarət əlaqələrinin həcminin artan dinamika ilə davam etdiyini bildirən Ali Məclisin Sədri ali və ümumtəhsil məktəbləri arasındakı qarşılıqlı əməkdaşlıqdan danışıb, əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

# Azərbaycan-Özbəkistan münasibətləri yüksək səviyyədədir



**Azərbaycan və Özbəkistan arasında münasibətlər yüksək səviyyədədir. Ölkələrimiz arasında sıx dostluq əlaqələri var. İnanırıq ki, bu münasibətlər bundan sonra da davam edəcək.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Baş Nazirinin müavini Əli Əhmədov Özbəkistanın Baş Nazirinin müavini Aziz Abduxakimov ilə görüşündə deyib. Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlərə toxunan Əli Əhmədov ölkəmizin iqtisadi sahədə əldə etdiyi nailiyyətlərdən də danışıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edən Baş Nazirin müavini Özbəkistanın bu məsələdə Azərbaycanın yanında olmasından məmnunluğunu ifadə edib.

Aziz Abduxakimov da, öz növbəsində, ölkələrimiz arasındakı əlaqələrin inkişafından danışıb. O bildirib ki, Azərbaycan beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir. UNESCO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyası buna bariz nümunədir.

*Praşanta Mandavala:*

## Azərbaycanın Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etməsi təqdirəlayiqdir



UNESCO-nun ən mühüm tədbirlərindən biri olan Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına Azərbaycanın ev sahibliyi etməsi təqdirəlayiqdir. Sessiyaya dünyanın 180-dək ölkəsindən 3 minə yaxın nümayəndə qatılıb. İştirakçı dövlətlərin tarixi və mədəni irsinin qorunub saxlanılması və ən yaxşı təcrübələrin bölüşülməsi baxımından bu tədbirin rolu əvəzedilməzdir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının iştirakçısı, Şri-Lankanın Arxeoloji tədqiqatlar təşkilatının baş direktoru Praşanta Mandavala deyib.

Şri-Lankanın nümayəndəsi tədbirin yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirib.

"UNESCO-nun bu tədbirində iştirakçı ölkələrin nümayəndələrinin hesabatları peşəkarlıqla hazırlanıb. Bu sənədlər bizim ölkəmizdə də təhlükədə olan bir çox tarixi və mədəniyyət abidələrinin mühafizəsinin qiymətləndirilməsi və UNESCO-nun Ümumdünya İrs Siyahısına salınması baxımından çox dəyərlidir," - deyə Praşanta Mandavala qeyd edib.

*Conni Muthahi Muhindo:*

## Azərbaycanın dünya irsinin qorunması sahəsindəki təcrübəsi digər ölkələrə nümunədir

Azərbaycanın dünya irsinin qorunması sahəsindəki təcrübəsi digər ölkələrə nümunədir. Bakıda işə başlayan UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etməkdən qürur duyuram. Bu dəvətə görə Azərbaycan hökumətinə təşəkkür edirəm. Tədbir çox yüksək səviyyədə təşkil olunub. Bu sessiya dünya irsi abidələrinin qorunmasına böyük töhfə verəcək.

Bu sözləri iyunun 30-da AZƏRTAC-a müsahibəsində Uqandanın UNESCO-dakı missiyasının rəhbər müavini Conni Muthahi Muhindo deyib.

Qonaq bildirib ki, zəngin tarixi və mədəni irsi olan Azərbaycan bir çox qədim abidələrini UNESCO-nun irs siyahısına təqdim edib. Bu da ondan xəbər verir ki, burada milli irsə və tarixi keçmişə dövlət səviyyəsində hərtərəfli diqqət və qayğı var. Uqanda olaraq biz də Azərbaycanın bu sahədə gördüyü işlərdən bəhrələnmək niyyətindəyik. Uqanda da UNESCO-nun Ümumdünya İrs Komitəsinin növbəti sessiyalarından birini keçirməyi düşünür. Azərbaycan bu baxımdan gözəl nümunədir.



*Bəhreynli nazir:*

## Azərbaycan dünyada mədəni mirasın qorunmasına həssas münasibət nümayiş etdirir



Azərbaycan daha bir mötəbər beynəlxalq tədbirə ev sahibliyi edir. İyunun 30-da Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası işə başlayıb. Sessiyanın işində Bəhreyn Krallığının Mədəniyyət və Əntiq Əşyalar naziri xanım Şeyxa May bint Məhəmməd Əl Xəlifə də iştirak edir.

AZƏRTAC xəbər verir ki, UNESCO-nun Ümumdünya İrs Komitəsinin növbəti illik sessiyasının Bakıda keçirilməsini yüksək qiymətləndirən xanım nazir Azərbaycanın dünyada mədəni mirasın qorunmasına həssas münasibət nümayiş etdirdiyini bildirib.

Azərbaycanın UNESCO-nun bu mötəbər tədbirinə çox yüksək səviyyədə hazırlaşdığını qeyd edən bəhreynli nazir deyib: "Hər şey çox gözəl təşkil olunub. Azərbaycan qlobal miqyaslı tədbirləri yüksək səviyyədə təşkil etmək imkanlarını artıq bir neçə dəfə sübuta yetirib. Əminəm ki, bu sessiya da uğurla gerçəkləşəcək".

Bəhreynli nazir Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasından gözləntilərini də dilə gətirib. Bildirib ki, dünya irsinin qorunması məsələsi nəinki hər hansı bir təşkilatın, eləcə də hər bir insanın diqqət göstərməli olduğu məqamdır. "Bəşəriyyət sürətli elmi-texniki tərəqqi dövrünü yaşayır. Bu inkişaf özlüyündə gözəldir. Lakin dünyada baş verən hərbi toqquşmalar, işğallar və münaqişələr təəssüf ki, bəzən minilliklərin mədəni mirasını çox qısa zamanda məhv olma təhlükəsi ilə üzüzə qoyur. Ona görə də UNESCO və onun tərkibində fəaliyyət göstərən bir sıra qurumların işinə dəstək verilməlidir. Bu mənada Bakıda keçirilən sessiyada dünya mirasının qorunması baxımından çox doğru qərarların qəbul ediləcəyinə inanıram", - deyə xanım Şeyxa May bint Məhəmməd Əl Xəlifə bildirib.

Qeyd edək ki, Bəhreynin Mədəniyyət və Əntiq Əşyalar naziri daha əvvəl bir neçə dəfə Azərbaycanda olub. 2015-ci ilin may ayında ölkəmizə səfəri çərçivəsində Azərbaycan Xalça Muzeyini ziyarət edən xanım nazir xalqımızın qədim xalçaçılıq sənəti, onun tarixi, ənənələri ilə yaxından tanış olub. Qonaq həsirlərin, xovsuz xalça növləri sayılan "Şəddə" və "Zili" xalçalarının öz vətənində də məşhur olduğunu bildirib. Maddi-mədəni irsimizlə yanaşı, muzey binasının orijinal görünüşü, qeyri-adi ekspozisiya zallarının quruluşu da qonaqda xoş təəssürat oyadıb.

Azərbaycan mədəniyyətinə böyük diqqət və maraq göstərən xanım Şeyxə May bint Məhəmməd Əl Xəlifəyə qədim çeşni əsasında muzeydə toxunmuş Qarabağın "Çələbi" xalçası, sənətşünaslıq doktoru, professor Röya Tağıyevanın Qahirədə ərəb dilində işıq üzü görmüş "Azərbaycan xalçası" kitabı və muzeyin sertifikatı hədiyyə edilib.

# TANAP Avropaya qaz nəqli üçün tam hazırdır

## CƏNUB QAZ DƏHLİZİNİN ƏSAS SEQMENTİ OLAN TANAP TAMAMLANDI







**Cənub Qaz Dəhlizinin əsas seqmenti olan Trans Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) 1 iyul 2019-cu il tarixindən etibarən Azərbaycan qazının Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilmişdir.**

Dəhlizin son seqmenti olan TAP boru kəməri layihəsi də tamamlandıqdan sonra Azərbaycanın "Şahdəniz-2" layihəsi çərçivəsində çıxarılan təbii qaz TANAP və TAP kəmərləri vasitəsilə Avropaya nəql ediləcək, ölkəmizin gəlirlərini artıraraq, Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verəcək. TANAP eyni zamanda tarixə Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun və ən geniş diametrli təbii qaz boru xətti kimi daxil olmuşdur. Azərbaycan və Türkiyənin uzunmüddətli strateji enerji əməkdaşlığının ən mühüm bəhrələrindən olan TANAP layihəsi tamamlanmışdır. Ərdəhanın Posof qəsəbəsindən başlayaraq Türkiyə ərazisi boyunca 20 şəhərin bölgəsindən, 67 qəsəbə və 600 kənddən keçən və Ədirnənin İpsala qəsəbəsində Avropaya çatan 1850 kilometrlik boru xətti 1 iyul 2019-cu il tarxindən etibarən Azərbaycan qazını Türkiyə-Yunanıstan sərhədində Trans Adriatik Boru Kəməri (TAP) vasitəsilə Avropaya nəql etmək üçün hazır vəziyyətə gətirilmişdir.

"Şahdəniz 2" layihəsi çərçivəsində hasil olunan Azərbaycan təbii qazını əvvəlcə Türkiyəyə, sonra da Avropaya nəql edəcək Cənub Qaz Dəhlizinin ən önəmli həlqəsi olan TANAP-ın Türkiyə-Gürcüstan sərhədindən Əskişəhərə qədər olan hissəsi 2018-ci il iyunun 12-də keçirilmiş beynəlxalq açılış mərasimində istifadəyə verilmiş, iyunun 30-da isə Türkiyəyə kommersiya məqsədli qazın axını başlamışdır. Boru xəttinin Əskişəhərdən Türkiyə-Yunanıstan sərhədinə qədər olan ikinci hissəsində isə mexaniki tamamlama işləri 2018-ci ilin sonunda başa çatmış, cari ilin aprelində xəttə sınaq məqsədilə qaz vurulmuşdur. 2019-cu il iyulun 1-dən Avropaya qazın nəqli üçün tamamilə hazır vəziyyətə gətirilən TANAP, tarixə eyni zamanda Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun və ən geniş diametrli təbii qaz xətti kimi düşmüşdür. Türkiyə-Yunanistan sərhədində TANAP ilə birləşəcək TAP boru kəmərində aparılan işlər tamamlandıqdan sonra, Azərbaycan qazı gələn ildən etibarən Avropa bazarlarına nəql olunacaq.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev demişdir: "Cənub Qaz Dəhlizi və TANAP bu gün artıq reallıqdır. Ötən il Azərbaycan və qardaş Türkiyənin möhtərəm prezidentlərinin iştirakı ilə TANAP üzərindən Türkiyəyə ilk qazın nəqlinə başladıq. Bu gün isə TANAP artıq Avropaya da təbii qazın ötürülməsi üçün tam hazır vəziyyətdədir və yalnız TAP boru kəmərində aparılan işlərin sona çatmasını gözləyirik.

Azərbaycan bu gün bütün dünyaya bir daha göstərmişdir ki, biz nəinki ölkə daxilində, həm də xarici ölkələrdə mürəkkəb transmilli layihələri vaxtında və yüksək səmərə ilə yerinə yetirməyə qadirik. SOCAR TANAP-ın icrasında öz tərəfdaşları ilə birlikdə 5 milyard dollara yaxın vəsaitə qənaət edərək, layihənin ümumi xərclərini 40% azaltmağa nail olmuşdur. Bu hadisə başda möhtərəm Prezidentimiz cənab İlham Əliyev və qardaş Türkiyənin möhtərəm Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan olmaqla, belə bir tarixi missiyanı bizə həvalə etmiş Azərbaycan və Türkiyə xalqlarının möhtəşəm uğurudur."

TANAP layihəsinin həyata keçirilməsində əməyi olan bütün tərəfdaşlara təşəkkürünü bildirən SOCAR prezidenti demişdir: "Bizə hər zaman yol göstərən, cəsarət verən möhtərəm dövlət başçılarımız başda olmaqla Türkiyə və Azərbaycanın dəyərli ictimai qurum və təşkilatlarına və onların rəhbərlərinə, öz etimad və dəstəkləri ilə fəaliyyətimizə dəyər qatan layihə tərəfdaşlarımıza - Cənub Qaz Dəhlizi Qapalı Səhmdar Cəmiyyətinin timsalında Azərbaycan Respublikasının bütün dövlət qurumlarına, BOTAŞ və BP şirkətlərinə və onların dəyərli rəhbərlərinə, həvəslə çalışaraq və işinə hörmətlə yanaşaraq, bu nəhəng layihəni addım-addım ərsəyə gətirən, işlərin ən qaynar vaxtında sayı onminlərlə olan TANAP əməkdaşlarına, o cümlədən layihəyə rəhbərlik edən TANAP-ın dəyərli baş direktoru cənab Saltuk Düzyola, bilik və bacarığını, var qüvvəsini əsirgəməyən və uğurumuzda böyük payı olan podratçılara, tədarükçülərə və digər tərəfdaşlarımıza, layihəyə böyük dəstək verən vətəndaş cəmiyyətlərinə, ictimaiyyəti maarifləndirmə sahəsində vəzifəsini məsuliyyətlə yerinə yetirən mətbuat nümayəndələrinə və gücümüzə güc qatan, təqdirləri ilə bizi qələbələrə həvəsləndirən əziz Azərbaycan və Türkiyə xalqlarına səmimi qəlbdən minnətdarlığımızı bildiririk".

Cənub Qaz Dəhlizinin əsas seqmenti olan TANAP boru kəmərinin hüquqi bazası 2012-ci ildə yaradılmışdır. Layihə üzrə yekun investisiya qərarı 2013-cü il dekabrın 17-də qəbul edilmişdir. 2015-ci ildə Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Qarsda keçirilən təməlqoyma mərasimindən sonra kəmərin inşaat işləri başlamışdır. TANAP-ın Türkiyə-Gürcüstan sərhədindən Əskişəhərə qədər olan ilk mərhələsi 2018-ci ilin iyununda tamamlanmışdır. Həmin il iyunun 12-də iki qardaş ölkənin dövlət başçılarının iştirakı ilə Türkiyədə TANAP-ın açılış mərasimi keçirilmişdir. Türkiyəyə kommersiya məqsədli ilk qazın nəqli 2018-ci il iyunun 30-da Əskişəhərdəki çıxış nöqtəsində başlamışdır. 2019-cu ilin iyunun sonunadək layihənin Əskişəhərdən Türkiyə-Yunanıstan sərhədinə qədər olan ikinci mərhələsi də uğurla başa çatdırılmışdır.

Layihənin yekun investisiya qərarı verilən də ümumi xərcləri 11,7 milyard dollar həcmində qiymətləndirilirdi. Lakin icra prosesində satınalma qərarlarının əlverişli zamanda verilməsi və layihənin idarəolunmasında səmərənin maksimum artırılması nəticəsində layihə 7 milyard dollardan aşağı xərclə tamamlanmışdır. TANAP çərçivəsində ətraf mühitə və ictimaiyyətə hörmət ifadəsi olaraq bugünədək 1000-ə yaxın sosial və ətraf mühit layihəsi həyata keçirilmiş, kəmərin keyfiyyət, ətraf mühitin mühafizəsi, əməyin sağlamlığı və təhlükəsizliyi sahəsində beynəlxalq miqyasda nümunəvi göstəricilərə nail olunmuşdur.

TANAP boru kəmərinin səhmdarları SOCAR və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin birgə müəssisəsi olan Cənub Qaz Dəhlizi QSC (51%), BOTAŞ (30%), BP (12%) və "SOCAR Türkiyə" Enerji A.Ş (7%) şirkətləridir.

# Ədliyyə naziri Sumqayıtda vətəndaşları qəbul edəcək



Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov iyulun 4-də Sumqayıt şəhərində ədliyyə fəaliyyəti ilə bağlı vətəndaşları qəbul edəcək.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbula vətəndaşlar Sumqayıt regional ədliyyə idarəsi (ünvan: Sumqayıt şəhəri, 18-ci məhəllə, bina 4/12, əlaqə telefonu: (01865) 5-57-45, (01865) 5-18-42), habelə Ədliyyə Nazirliyinin 510-10-01 (əlavə 2104), 055-925-37-41 nömrəli telefonları və contact@justice.gov.az elektron poçt ünvanı vasitəsilə yazıla bilərlər.

Həmçinin vətəndaşların rahatlığı üçün Ədliyyə nazirinin qəbuluna elektron qaydada birbaşa yazılmaq imkanı yaradılıb. Bu məqsədlə Ədliyyə Nazirliyinin elektron xidmətlər portalına (www.exidmet.justice.gov.az) müraciət etmək lazımdır.

*Mextild Rossler:*

# Azərbaycan mədəni sərvətlərinə, irs nümunələrinə diqqət və qayğı ilə yanaşır



Bakıda işə başlayan UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında dünyanın 180-dən artıq ölkəsindən 2500-dən çox nümayəndə iştirak edir. Bakı sessiyasında UNESKO-nun Dünya İrsi Siyahısına daxil edilmək üçün üzv dövlətlər tərəfindən təqdim olunmuş 36 namizəd fayl nəzərdən keçiriləcək. Namizədliyi irəli sürülmüş faylların 28-i mədəni, 6-sı təbiət, 2-si qarışıq (təbiət və mədəni) abidələr sırasına daxildir. Eyni zamanda, Bakıda UNESKO-nun siyahısında olan və təhlükə ilə üzləşən 166 abidənin hazırkı vəziyyəti müzakirə ediləcək.

Bu sözləri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Dünya İrs Mərkəzinin direktoru xanım Mextild Rossler deyib.

Xanım M.Rossler tədbirin əhəmiyyətini vurğulayıb. Tədbir çərçivəsində təşkil edilən Abidə Menecerlərinin Forumu və Gənc Peşəkarlar Forumunun işini yüksək dəyərləndirən direktor təşkil edilən sessiyalarda maraqlı müzakirələrin şahidi olduğunu diqqətə çatdırıb. Bildirib ki, UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək üçün Bakıya bu sahənin çoxsaylı mütəxəssisləri toplaşıb. Burada olduğumuz bir neçə gün ərzində biz təşkilati işlərin yüksək səviyyədə həyata keçirildiyinin şahidiyik. Eyni zamanda, onu da qeyd etmək istərdim ki, Azərbaycan mədəni sərvətlərinə, irs nümunələrinə diqqət və qayğı ilə yanaşır.

Bu gün Qobustan Milli Tarix-Bədii Qoruğunda olduğunu söyləyən Mextild Rossler buradakı nadir qayaüstü rəsmlərə heyranlıqla baxdığını və ərazinin açıq səma altında qoruq-muzey kimi böyük şöhrət qazandığını vurğulayıb.

UNESKO-nun Dünya İrs Mərkəzinin direktoru Mextild Rossler əmin olduğunu bildirib ki, on gündən sonra hər bir iştirakçı Bakıdan xoş təəssüratlarla ayrılacaq.

# Ədliyyə fəaliyyəti dövlətimizin başçısının tapşırıqlarına uyğun təkmilləşir





**Ədliyyə Nazirliyinin əsas fəaliyyət istiqamətləri üzrə cari ildə görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilib.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kollegiya iclasında çıxış edən Ədliyyə naziri Fikrət Məmmədov ümummilli lider Heydər Əliyevin dövlət inkişafı kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətli tərəqqisini, vətəndaşların rifahının yüksəldilməsinə xidmət edən sosialyönümlü mühüm qərarların qəbul olunduğunu, dövlət idarəçiliyinin təkmilləşdirilməsi üzrə önəmli addımların atıldığını vurğulayıb. Qeyd olunub ki, ölkənin hərtərəfli inkişafına uyğun olaraq ədliyyə və məhkəmə sistemi də islahatlar aparılmaqla müasirləşir.

İclasda dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülmüş işlər əyani təqdimatla nümayiş etdirilməklə ətraflı təhlil olunub.

Məlumat verilib ki, ölkədə iqtisadi inkişafa, əhalinin maddi və sosial vəziyyətinin yaxşılaşdırılmasına yönələn qanunyaradıcı fəaliyyətdə nazirlik tərəfindən yaxından iştirak edilərək cari ildə hazırlanmış normativ akt layihələrinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 50 faiz artaraq 800-ə çatıb, 1300-dək belə akt ekspertizadan keçirilib, 1600-dək sənəd Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilib.

Ədliyyə Nazirliyi tərəfindən aparılan vətəndaşların daha çox bəhrələndiyi qanunvericiliyin elektron resurslarına (huquqiaktlar.gov.az və e-qanun.az) edilən başçəkmələrin sayı 40 faiz artaraq 900 minə çatıb. Həmin elektron bazalara əlçatanlığın asanlaşdırılması, onların funksionallığının artırılması üzrə əməli işlər görülür.

Notariat fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən bu sahədə yeni qanunvericiliyin implementasiyası çərçivəsində Notariat Palatasının yaradılması, notariat ofislərinin fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlər görülüb, qanunvericilikdəki dəyişikliklərlə əlaqədar hazırlanaraq təqdim olunmuş bir sıra yeni qanun layihələri paketi Parlamentdə ilk oxunuşdan keçib.

Yeni Qanuna əsasən elektron ədliyyə köşkü, səyyar notariat çantası və mobil notariat qovluğu hazırlanıb. Azərbaycan istehsalı olan bu innovasiyalar vətəndaşlara istənilən yerdə notariat hərəkətlərinin aparılmasına, təxirə salınmayan hallarda səyyar və məsafədən xidmətlərin göstərilməsinə, elektron notariat kabinetinə sahib olmaqla notariat fəaliyyəti barədə məlumatların əldə edilməsinə imkan verir. Artıq hava limanında quraşdırılaraq üç aydır ki, istifadəyə verilmiş elektron ədliyyə köşkünə yüzlərlə müraciət edilib və vətəndaşlar ədliyyə xidmətlərindən dərhal faydalanıblar. "Mobil notariat" proqram təminatından isə 2500 şəxs istifadə edib. Bu yeniliklər qısa müddətdə tətbiq edilməsinə baxmayaraq, artıq beynəlxalq marağa da səbəb olub.

İclasda innovasiyalara dair nazirliyin internet informasiya resursunda "İnnovativ ədliyyə" bölməsi yaradılmaqla bu barədə əhalinin dolğun məlumatlandırılmasının və istifadəçi auditoriyasının genişləndirilməsinin vacibliyi vurğulanıb, innovativ texnologiyaların imkanlarından ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası işində istifadəsi ilə bağlı tapşırıqlar verilib, bu məqsədlə hazırlanmış ictimai işlərin yerinə yetirilməsi vəziyyətinin izlənilməsinə və cəza çəkməkdən yayınma hallarının dərhal aşkar olunmasına xidmət edən xüsusi monitorinq qurğusu nümayiş etdirilib.

Eyni zamanda, vətəndaşlara göstərilən elektron ədliyyə xidmətləri təhlil olunub, 2019-cu ildə nazirliyin 30-dan çox e-xidmətindən istifadənin sayının 1,7 milyona çatdığı, Azərbaycan adları, fərdi identifikasiya nömrəsi, borclunun ölkədən getmək hüququnun məhdudlaşdırılması ilə bağlı məlumatların verilməsi barədə e-xidmətlərinə daha çox müraciət olunduğu bildirilib, vətəndaşlar üçün daha aktual və tələbli olan yeni növ xidmətlərin tətbiqi müzakirə olunaraq, icra işləri, bələdiyyə və ekspertiza fəaliyyəti ilə bağlı daha 4 növ e-xidmətin istifadəyə verilməsi qərara alınıb.

Kollegiya iclasında 2019-cu ildə ədliyyə və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl işlərin dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ilə yeni mərhələyə keçdiyi xüsusi vurğulanaraq proqram xarakterli "yol xəritəsi" olan bu mühüm sənədin icrası üzrə həyata keçirilən qanunvericilik, institusional və praktiki tədbirlər qeyd olunub.

Bildirilib ki, Fərmandan irəli gələn məsələlərə dair vətəndaş cəmiyyəti və KİV nümayəndələrinin iştirakı ilə geniş ictimai müzakirələr keçirilib, mütərəqqi beynəlxalq təcrübələr öyrənilib, birgə işçi qrup tərəfindən qısa müddətdə 30-dan çox normativ aktların layihələri hazırlanıb. Sahibkarlıqla bağlı mübahisələr üzrə ixtisaslaşdırılmış məhkəmənin yaradılması, hakimlərin sosial müdafiəsinin və məhkəmə təminatının yaxşılaşdırılması ilə bağlı dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim olunmuş yeni qanun layihələri paketi artıq bu ərəfədə müzakirə olunub.

İclasda Fərmanın icrası üzrə nazirliyin üzərinə düşən vəzifələrin vaxtında və dürüst yerinə yetirilməsi ilə bağlı əlavə tapşırıqlar verilib.

İclasda, həmçinin qarşıda duran vəzifələr müzakirə edilib, ədliyyə işçiləri tərəfindən etik davranış qaydalarına dönmədən əməl olunması, yol verilən xarakterik nöqsanların səbəb və şəraitinin aradan qaldırılması, vətəndaşlara layiqli xidmətlər göstərməklə məmnunluğun təmin edilməsi ilə bağlı tapşırıqlar verilib.

Sonda ədliyyə fəaliyyətini tənzimləyən bəzi normativ akt layihələrinə baxılıb, təcrübədən irəli gələn struktur dəyişiklikləri ilə bağlı qərar qəbul olunub, vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynayan 20-dək qeyri-hökumət təşkilatı dövlət qeydiyyatına alınıb.

# *Hadi Rəcəbli:* Bu il 10 min insanın özünüməşğulluq ilə təmin olunması gözlənilir

"İşsizlikdən Sığorta Fonduna yönəldilən 15 milyon manatın 14 milyon manatı işsizlikdən sığortaya, 1 milyon manatı isə peşə təhsilinə yönələcək". Bu fikri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli deyib.

H.Rəcəbli bildirib ki, nəticədə bu proses cari ildə Azərbaycanda 10 min insanın özünüməşğulluq ilə təmin olunmasına kömək edəcək.

"İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" qanunda edilən dəyişiklik bu məqsədlərə xidmət edir"- deyə, H.Rəcəbli vurğulayıb.



# KİV rəhbərlərinin Moskvaya səfəri başlayıb









Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə respublikanın aparıcı KİV təmsilçilərindən ibarət 12 nəfərlik nümayəndə heyətinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə səfər proqramı başlayıb. Nümayəndə heyətinin Rusiyanın jurnalist təşkilatları və aparıcı KİV-lərin redaksiyalarında görüşləri nəzərdə tutulub.

Səfər proqramı iyulun 1-də başlayıb və ilk görüş Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyində keçirilib. Səfir Polad Bülbüloğlu nümayəndə heyətini salamlayaraq, Azərbaycanın aparıcı KİV qurumlarının Rusiya Federasiyasına səfər proqramını müsbət dəyərləndirdiyini bildirib. O, iki ölkənin KİV qurumlarının əlaqələrinin gücləndirilməsinin hər iki ölkənin maraqlarına xidmət etdiyini vurğulayıb. Səfir Azərbaycan və Rusiyanın müştərək maraqlarına xidmət edən proqramlar barədə də məlumat verib. Bu proqramların reallaşması üçün medianın dəstəyinin mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb və Azərbaycan media təmsilçilərinin Moskvaya səfərlərinin bu yöndə ciddi önəm daşıdığını vurğulayıb.

KİVDF-nin icraçı direktoru, səfər qrupunun rəhbəri Vüqar Səfərli KİV təmsilçilərinin Moskvaya səfərinin məqsədi, həmçinin Azərbaycanda KİV-in durumu və KİVDF-nin fəaliyyəti barədə məlumat verib. Vüqar Səfərli Rusiya - Azərbaycan media təmsilçilərinin sıx təmaslarının zəruri olduğunu, bunun üçün həm Rusiya, həm də Azərbaycan dövlətinin dəstəyinin önəmli olduğunu vurğulayıb. Səfir Polad Bülbüloğlu iki ölkə KİV-lərinin təmaslarının gücləndirilməsi üçün səlahiyyətləri çərçivəsində bütün dəstəyi verməyə hazır olduqlarını qeyd edib.

Nümayəndə heyətinin növbəti görüşü "İTAR-TASS" İnformasiya Agentliyində keçirilib. Nümayəndə heyətinin üzvləri öncə Agentliyin iş mühiti ilə tanış olublar. Daha sonra Baş redaktor Maksim Filimonovla görüş keçirilib. Səmimi diskussiya şəraitində keçirilən görüşdə tərəflər qarşılıqlı maraqları və əlaqələrin inkişafı üçün fikirlərini çatdırıblar.

Məlumat üçün bildirək ki, nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Xalq qəzeti"nin baş redaktoru, KİVDF-nin Müşahidə Şurasının sədri Həsən Həsənov, "Trend" İnformasiya Agentliyinin baş direktoru İlqar Hüseynov, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "Bakinskiy Raboçiy" qəzetinin baş redaktoru Rəhman Hacıyev, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədr müavini Rəşad Nəsirov, AZƏRTAC İnformasiya Agentliyinin redaksiya müdirinin müavini Əziz Məmmədov, "Novoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev, "Kaspiy" qəzetinin baş redaktoru İlqar Hüseynov daxildir.

Görüşlər davam edir. Səfər proqramı iyulun 4-dək davam edəcək.

## TƏLƏBƏLƏR "LİVE LİFE" SƏRGİSİ ÇƏRÇİVƏSİNDƏ YAY TƏCRÜBƏSİ KEÇƏCƏKLƏR



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil edilmiş "Live Life" beynəlxalq sərgi layihəsi çərçivəsində Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının fərqlənmiş 30 tələbəsi iyulun 2-dən 6-dək Heydər Əliyev Mərkəzində yay təcrübəsi keçəcək.

AZƏRTAC xəbər verir ki, yay təcrübəsinin mövzusu "Live Life" sərgisinin ideyası ilə səsləşir və ətraf mühitin problemlərinə, təbiətin qorunmasına, incəsənətin bu sahədə roluna dair ictimaiyyətin maarifləndirilməsinə diqqət cəlb edilməsini nəzərdə tutur.

Yaradıcılıq layihəsi IDEA İctimai Birliyinin təşəbbüsü, Heydər Əliyev Mərkəzi və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dəstəyi ilə keçirilir.

Yay təcrübəsində iştirak edən tələbələrə yaradıcılıq üçün zəruri olan baza dəstləri təqdim ediləcək.

İştirakçılardan hər biri 150 AZN məbləğində həvəsləndirici mükafat alacaq. Layihənin sonunda isə onların arasından üç qalib seçiləcək. Birinci yerin qalibi 500 AZN, ikinci və üçüncü yerləri tutanlar isə müvafiq olaraq 300 AZN və 200 AZN məbləğində pul mükafatları alacaqlar. Bütün iştirakçılara xatirə diplomları təqdim ediləcək.

Qeyd edək ki, "Live Life" sərgisi London, Paris, Berlin, Moskva və Tbilisidə nümayişdən sonra Bakıya, Heydər Əliyev Mərkəzinə gətirilib. Sərgi ətraf mühit problemlərinə, təbiətin qorunmasına diqqət çəkmək və incəsənətin bu sahədə rolu barədə ictimaiyyəti maarifləndirmək məqsədi daşıyır. Ekspozisiyada 200-dən çox əsər təqdim olunur.

## Türkiyə bu il Azərbaycandan 2,8 milyard kubmetrdən çox təbii qaz alıb



Apreldə Türkiyə Azərbaycandan 724 milyon kubmetr təbii qaz idxal edib.

Bu barədə Türkiyənin Enerji Bazarını Tənzimləmə Təşkilatı (EPDK) məlumat yayıb. Bildirilir ki, apreldə Türkiyənin Azərbaycandan idxal etdiyi qazın həcmi martla müqayisədə 133 milyon kubmetr artıb. Azərbaycan apreldə Türkiyənin ən çox qaz idxal etdiyi ölkələr sırasında Rusiyadan (1,4 milyard kubmetr) sonra ikinci olub.

Yanvarda Türkiyə Azərbaycandan 808 milyon kubmetr, fevralda 683 milyon kubmetr, martda 591 milyon kubmetr, apreldə isə 724 milyon kubmetr təbii qaz idxal edib. Ümumilikdə 4 ayda qardaş ölkənin Azərbaycandan qaz idxalı 2 milyard 806 milyon kubmetr təşkil edib.

# “Din və media” mövzusunda yazı müsabiqəsi elan edilib

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Mətbuat Şurası 22 iyul Milli Mətbuat Günü münasibətilə “Din və media” mövzusunda yerli kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında yazı müsabiqəsi elan edir.

Şuradan AZƏRTAC-a bildiriblər ki, müsabiqədə I yer üçün 1 nəfər (1000 manat), II yer üçün 2 nəfər (800 manat), III yer üçün 3 nəfər (600 manat) yazı qaliblərinin mükafatlandırılması nəzərdə tutulub. Bundan əlavə, 6 yazı müəllifinə (hər biri 150 manat) həvəsləndirici mükafatlar veriləcək. Müsabiqənin nəticələri 2019-cu il 23 iyul tarixində açıqlanacaq.

Müsabiqəyə 2019-cu il iyulun 1-dən iyulun 15-dək qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında yayımlanan yazılar buraxılacaq. Müsabiqə üçün dil məhdudiyyəti nəzərdə tutulmur. Yazıların həcmi 9-11 min işarədən (1 A3 formatlı qəzet vərəqindən) çox olmamalıdır. Yazıda “Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan Mətbuat Şurasının 22 iyul Milli Mətbuat Günü münasibətilə “Din və media” mövzusunda keçirdiyi birgə müsabiqəsinə təqdim olunur” qeydi olmalıdır.

Müəlliflər yazılarını şəxsən və ya elektron qaydada təqdim edilə bilərlər.

*Pakistanlı ekspert:*

## Ermənistan Düşənbə razılaşmalarının reallaşdırılmasını təhlükə altına qoyur



Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində mövqeyi MDB dövlət başçılarının sammiti zamanı imzalanmış Düşənbə razılaşmalarının reallaşdırılmasını təhlükə altına qoyur.

Trend-in məlumatına görə, bunu Azernews-a müsahibəsində pakistanlı siyasi ekspert Malik Əyyub Sumbal deyib.

Onun sözlərinə görə, regional və qlobal qüvvələr Cənubi Qafqazda genişmiqyaslı müharibəyə çevriləcək bu münaqişənin nizamlanması məsələsinə daha məsuliyyətlə yanaşmalıdır.

Son dövrlərdə qeydə alınmış erməni təxribatları, xüsusilə də cəbhə xəttində azərbaycanlı hərbçilərin öldürülməsi barədə danışan ekspert qeyd edib ki, Azərbaycan hər zaman müdafiə mövqeyi tutub və erməni mövqelətinə hücum etməyib.

Ermənistanın Naxçıvana hücum etmək planının mümkünlüyünə gəldikdə isə ekspert vurğulayıb ki, Ermənistan maddi və maliyyə ehtiyatlarının məhdudluğu səbəbi ilə yeni cəbhə açmaq iqtidarında deyil.

## “Üzgüçülüyün əsasları”

### Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi tələbələrə bu mövzuda təlim keçib



SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin Dənizdə İnsan Həyatının Mühafizəsi üzrə Təlim Mərkəzində Bakı Ali Neft Məktəbinin (BANM) I kurs tələbələri üçün “Üzgüçülüyün əsasları” təlimi yekunlaşıb. On gün davam edən təlimdə BANM-in 180 tələbəsi iştirak edib.

“Üzgüçülüyün əsasları” təlimində BANM-in tələbələrinə Dənizdə İnsan Həyatının Mühafizəsi üzrə Təlim Mərkəzinin peşəkar mütəxəssisləri tərəfindən üzgüçülük nəzəriyyəsi, suya daxilolma qaydaları, suda nəfəsalma metodikası, “Poplavok”, “Meduza” və “Ulduz” suda qalma üsulları, Krol və Brass üzmə metodikaları, sürətli üzmə, xilasedici avadanlıq və mühafizə vasitələrindən istifadə qaydaları və s. haqqında təlimatlar verilib.

Tələbələrin dəniz şəraitində iş vaxtı və qəza hallarında təhlükəsizlik, ilkin tibbi yardım göstərilməsi haqqında əldə etdikləri biliklər onların gələcəkdə istehsalatda işləyərkən təhlükəli vəziyyətlərə hazır olmalarına və dənizdə insan həyatının mühafizəsi üzrə kompleks tədbirlərin görülməsinə, təcrübəli kadr kimi yetişmələrinə zəmin yaradacaq.

Kursu müvəffəqiyyətlə bitirən tələbələrə sertifikat veriləcək.

**Orxan Vahidoğlu,**
*“İki sahil”*

# Həmişə yerin görünəcək, Cəlal müəllim!



İyunun 30-u Azərbaycan xalqının yetişdirdiyi nadir və böyük ziyalılarımızdan biri, akademik Cəlal Əliyevin doğum günü idi.

Cəlal müəllim təkcə doğum günlərində deyil, hər gün xatırlanmağa haqqı olan, özünə əbədi xatirə qazanmış bir şəxsiyyətdir.

Cəlal müəllim hamıya örnək ola biləcək bir həyat yolu keçmişdir.

Mən ondan cox çey öyrənmişəm, həyat dərsi almışam.

O, mətin və qayğıkeş bir şəxsiyyət idi. Mübariz, prinsipial, sərt olduğu qədər də həssas idi.

Həmişə vurğulayırdı ki, yalnız alimin yox, ümumiyyətlə, hər kəsin öz yolu olmalıdır. Onunla xarici səfərlərə getmişəm. Azərbaycanın rayonlarını gəzmişəm, seçicilər ilə görüşlərində iştirak etmişəm...

Novruz bayramı ərəfəsində anası İzzət xanımın məzarını ziyarət edərdi. Xatırlayıram ki, atası Əlirza kişi ilə birlikdə Naxçıvanın taxıl zəmilərində başaq toplamasından danışarkən gözləri dolurdu. Bəlkə də onun taxılçılığa olan həvəsinin bünövrəsi həmin vaxtlarda qoyulmuşdu.

Cəlal müəllim yaltaq adamları və bələləri yaxına buraxmırdı. Deyərdi ki, insan həyatdakı yerini özü müəyyənləşdirməlidir.

Onun Heydər Əliyevə olan sonsuz sədaqətindən günlərlə, aylarla danışmaq olar.

Bu gün hamı etiraf və qəbul edir ki, Heydər Əliyevin hakimiyyətə qayıdışının əsasında Cəlal müəllimin qeyri-adi fədakarlığı dayanır. Deyirdi ki, qardaşım olduğu üçün demirəm. Heydər kimi şəxsiyyətlər dünyaya min ildən bir gəlir. Azərbaycan tarixində onunla rəqabət apara biləcək ikinci bir dövlət adamı yoxdur.

Azərbaycan elmində öz məktəbini yaradan Cəlal müəllim həm də kişilik, mərdlik məktəbidir.

40 ilə yaxın tanışlığım dövründə mən Cəlal müəllimi dərindən kəşf etməyə çalışdım. Onun haqqında danışanda həmişə bir həqiqəti təkrarlamağı istərdim: Cəlal müəllim dürüst, fədakar, ədalətli və qorxmaz insan idi.

O, həyatının mərhələlərində eyni əxlaq, eyni prinsiplə yaşayıb. Çətinliklərə, məhrumiyyətlərə, haqsızlığa baxmayaraq, ruhdan düşməyib, əqidəsindən bir addım da geri çəkilməyib, O, heç kimdən, heç nədən çəkinməyən, qorxmaz, əyilməyən, məğrur bir şəxsiyyət idi.

O, hər bir işə vətəndaşlıq yanğısı ilə yanaşırdı. Cəlal müəllim hər şeydən əvvəl böyük vətənpərvər idi. Akademik Vətənini sevən, dövlətinə vicdanla qulluq edən, torpağımıza, respublikamızın suverenliyinə qarşı çıxanlara münasibətdə çox barışmaz olub.

Azərbaycan cəmiyyəti Cəlal Əliyevi ümummilli liderimiz Heydər Əliyevin yaxın silahdaşı, əqidə yoldaşı və mübariz bir insan kimi tanıyır. O, bütün qanı və canı ilə dövlətə, dövlətçiliyə, Heydər Əliyevə, Heydər Əliyevçiliyə bağlı olan insan idi. Cəlal müəllim fədakar qardaş, fədakar ictimai xadim idi. Onun Heydər Əliyevə olan münasibəti ilə Azərbaycan uğrunda apardığı əzmkar mübarizə arasında paralellər də aparmaq olar. O, həmişə Heydər Əliyevin yanında olub, çətin sınaqlarda və şərəfli dövlət quruculuğunda çiyin-çiyinə mübarizə aparıb. Kiçik qardaş kimi Cəlal müəllim Heydər Əliyevə, onun ailəsinə siyasi mərkəzdən yönəldirilən təzyiqlərə qarşı fərqli bir mövqe nümayiş etdirdi, iftiralara, yalanlara, təhqirlərə dirəniş göstərən böyük mübarizə cəbhəsi açmışdı. 1987-ci ildə Siyasi Bürodan istefa verəndən dərhal sonra Heydər Əliyevin əleyhinə yönəlmiş kampaniya onun yaxınlarından yan keçməmişdi. Mərkəzi və yerli mətbuatda qərəzli, təhqiramiz yazılar dərc edilirdi. “Pravda”, “Sovet kəndi” və başqa qəzetlərdə Heydər Əliyevə və onun qardaşlarına saysız-hesabsız böhtan yağdırılırdı. Məqsəd aydın idi: Cəlal müəllimi zərərsizləşdirmək, susdurmaq. Görülən tədbirlər Cəlal müəllimi yolundan çəkindirə bilmədi. Onu tanıyanlar deyirdilər ki, Cəlal Əliyev çox cəsarətli şəxsiyyət olub. Heç nədən qorxmayaraq, həmin dövrdə qəzetlərdə yazılan böhtanların qarşısını cəsarətlə alır, bütün təzyiqlərə baxmayaraq, mübarizəsindən geri çəkilmirdi. Cəlal müəllim həyatının bütün mərhələlərini ədalət uğrunda mübarizəyə həsr etmişdi. İstər alim, istərsə qardaş və hətta ictimai-siyasi xadim kimi də Cəlal Əliyev yalnız bir missiyanı yerinə yetirirdi: haqsızlıqla barışmamaq, sınmadan, boyun əymədən yaşamaq. Həmişə dərin inam hissi və yorulmaq bilməyən fəaliyyəti ilə zəngin, qüdrətli Azərbaycan quruculuğunun ön sıralarında olub, ölkəmizin xoşbəxt gələcəyi naminə çalışıb. Ulu Öndərimizin tərəfdarları Cəlal müəllimi yeriyən, döyüşən, canlı “Heydər Əliyev mərkəzi” hesab edirdilər.

Cəlal müəllim yeganə elm xadimidir ki, Sovet İttifaqı Kommunist Partiyasının rəsmən buraxılmasından xeyli əvvəl Kommunist Partiyasından çıxmaq haqqında qərar qəbul etdi. O, 1991-ci ildə Elmlər Akademiyasının Partiya Komitəsinə ərizə yazaraq, könüllü olaraq partiya üzvlüyündən imtina etdi. Onun yazdığı ərizənin mətni bir daha sübut edir ki, Cəlal müəllim əsl vətənpərvər Azərbaycan ziyalısıdır. O, ərizəsində yazırdı ki, bütün 62 illik ömrü boyu xalqa, Vətənə təmənnasız xidmət edib: “Sağlamlığımı, firavanlığımı, ailəmin səadətini elmə fəda etmişəm. Bəs nəticəsi nə olub? Partiya biletini özünə sipər edən cılız, ləyaqətsiz ünsürlərin təhqir və təqiblərinə məruz qalmışam. Bundan sonra partiyada qalmaq bütün bu cinayətlərdə, vəhşiliklərdə, günahsız qanlarda, xalqın alçaldılmasında iştirakçı olmaq və bu cinayətkar siyasətə tərəfdar çıxmaq deməkdir.”

Onu yaxından tanıyanlar bilirlər ki, Cəlal müəllim çox sadə, hər cür dəbdəbədən, təmtəraqdan uzaq həyat tərzi keçirirdi. Şəxsi mənzili olmadığından, 40 yaşına kimi başqa evlərdə yaşamışdı.

Cəlal Əliyev qayğıkeş və sadə insan, humanist şəxsiyyət kimi də qəlblərdə silinməz iz buraxıb.

Onun böyüklüyü həm də onun sadəliyində, təvazökarlığında idi. O, imkanı daxilində insanlara qayğı, diqqət göstərib, neçə-neçə alimin, savadlı kadrların köməyinə çatıb, bir çox hallarda haqsızlıqlarla üzləşən elm fədailərinə arxa, dayaq olub, hər cür yardım göstərib, ancaq heç vaxt yaxşılıqlarını dilə gətirməyib, üzə vurmayıb. Azərbaycan elminin dünyada tanınmasında, təbliğində və beynəlxalq elmi təşkilatlarla əlaqələr qurulmasında bu böyük alimin misilsiz xidmətləri olub. Elmi ixtiraların dünyanın ən nüfuzlu elmi-tədqiqat institutlarında, iri sənaye müəssisələrində tətbiq olunmasında müstəsna xidmətləri var.

Mən onun Fəxri xiyabandakı məzarını tez-tez ziyarət edir və onunla söhbət edirmiş kimi deyirəm:

Həmişə yerin görünəcək, Cəlal müəllim.

Allah sənə rəhmət eləsin! Biz sizi heç vaxt unutmadıq.

Doğum günün mübarək, Cəlal müəllim!

**Rizvan Vahabov,**
YAP Siyasi Şurasının üzvü

## 101 YAŞLI AZƏRBAYCAN POLİSİ:
# asayişin və sabitliyin təminatçısı



İyulun 2-də Azərbaycan Polisinin yaranmasından 101 il ötür. Bu şanlı günün təsis tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə qədər uzanır.

"Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nda qeyd olunanlara əsasən tarixə nəzər salsaq, 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının qərarı ilə Fətəli xan Xoyski tərəfindən Tiflisdə təşkil edilmiş birinci Azərbaycan Xalq Cümhuriyyəti Hökumətində Fətəli xan Xoyski Nazirlər Şurasının sədri vəzifəsi ilə yanaşı, həm də daxili işlər naziri vəzifəsini icra edirdi. Həmin il Hökumət Gəncəyə köçdükdən sonra iyunun 17-də F.X.Xoyskinin burada təşkil etdiyi İkinci Hökumətdə daxili işlər naziri vəzifəsini Behbud xan Cavanşir tutdu. Noyabr-dekabr aylarında isə Behbud xan Cavanşirin sənaye və ticarət naziri vəzifəsinə təyin olunması ilə əlaqədar daxili işlər naziri vəzifəsini müvəqqəti olaraq general-mayor Məmməd Sadıq bəy Ağabəyov icra edib.

Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyi uzun müddət fəaliyyət göstərməsə də mürəkkəb bir tarixi zaman kəsiyində ölkədə hökm sürən anarxiyanın qarşısının alınması, hüquq normalarının və asayişin bərqərar edilməsi, vətəndaşların şəxsi və əmlak təhlükəsizliklərinin təmin olunması, cinayətkarlıqla mübarizə aparılması yönündə, beləliklə də respublikada sabitlik yaradılmasında çox mühüm rol oynayıb.

Təəssüf ki, Cümhuriyyətimizin süqutundan sonra totalitar bolşevik rejimi bütün milli dövlət və hüquq-mühafizə strukturları kimi, milli polisimizi də ləğv edib...

Ümummilli lider Heydər Əliyevin məhz Cümhuriyyət dövrü tarixinə əsaslanaraq 1998-ci ildə imzaladığı Fərmanla iyulun 2-si Azərbaycan Polisi Günü elan olunub.

Amma müstəqillik əldə olunana qədərki dövrdə də Ulu Öndərin rəhbərlik etdiyi Azərbaycan Sovet Respublikasında iqtisadi, sosial və digər sahələrdə böyük uğurların qazanıldığı 1970-1980-ci illər Daxili İşlər Nazirliyinin tarixində də mühüm mərhələ kimi yadda qalıb. Həmin illərdə Ümummilli Lider daxili işlər orqanlarının təşkilati və ideoloji cəhətdən möhkəmlənməsi istiqamətində önəmli qərarlara imza atıb. Müstəqilliyimizin sonrakı illərində də daxili işlər orqanları gərgin şəkildə fəaliyyət göstəriblər.

2003-cü ilin oktyabrında cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmizin inkişafında yeni mərhələyə start verilib. İnkişafa zəmin yaradan sabitlik amili xüsusilə diqqətdə saxlanılıb və saxlanılmaqdadır.

Dövlətimizin başçısının bütün istiqamətlərdə həyata keçirdiyi islahatlar çərçivəsində daxili işlər orqanlarının da müasirləşməsi üçün mühüm addımlar atılıb. Ötən 16 ildə daxili işlər orqanlarında xidməti fəaliyyətin cəmiyyətin maraqlarına tam cavab verməsi, qabaqcıl beynəlxalq təcrübəyə uyğun qurulması məqsədilə Prezident İlham Əliyev tərəfindən müxtəlif Fərman və sərəncamlar imzalanıb. O cümlədən nazirliyin strukturunun və normativ -hüquqi bazasının təkmilləşdirilməsi, maddi-texniki təchizatının yaxşılaşdırılması, şəxsi heyətin sosial müdafiəsinin və demokratik cəmiyyətdə polisin rolu haqqında məlumatlandırma işinin gücləndirilməsi üzrə Azərbaycan Prezidentinin təşəbbüsü ilə 2004-cü ildə qəbul edilmiş Dövlət Proqramı əsasında mühüm əhəmiyyət kəsb edən tədbirlər görülüb və görülməkdə davam edir.

Dövlət başçısının bu ilin iyun ayının 20-də imzaladığı Sərəncamla general-polkovnik Vilayət Eyvazovun daxili işlər naziri təyin edilməsindən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi Ramil Usubovun daxili işlər orqanlarının şəxsi heyətinə müraciətində sözügedən güc strukturunun formalaşması və inkişafı ilə bağlı mühüm məqamlara toxunulub.

Ramil Usubov yeni nazir Vilayət Eyvazovu Prezidentə bağlılığı və sədaqəti, böyük peşəkarlığı, idarəçilik və rəhbərlik bacarığı ilə seçilən kadr kimi xarakterizə etməklə bu təyinatdan məmnunluğunu ifadə edib.

Müraciətdə bütövlükdə Daxili İşlər Nazirliyinin keçdiyi şərəfli yol yığcam, amma dolğun şəkildə qeyd olunub. Təhlükəsizlik Şurasının katibi son 25 ildən artıq bir müddətdə daxili işlər orqanlarının ulu öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq mətinləşdiyini, zamanın çətin sınaqlarından şərəflə çıxdığını, Vətənə və xalqa xidmət missiyasını sədaqətlə yerinə yetirdiyini, dövlətin Konstitusiya quruluşunun əsaslarının müdafiəsində xüsusilə fərqlənərək onun dayaqlarından birinə çevrildiyini və dəyərli ənənələr yaratdığını xüsusilə vurğulayıb: "Sonrakı dövrdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əvəzsiz diqqət və qayğısı sayəsində daha da inkişaf etmiş, müasirləşmişdir. Qloballaşan dünyanın yeni çağırış və təhdidlərinə adekvat cavab verməyə qadir olan daxili işlər orqanları bu gün xalqa, Vətənə, dövlətə və andına sadiqliyi ilə seçilir, Zati-alilərinin inam və etimadını doğruldur. Eyni zamanda, cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində üzərinə düşən vəzifələri, qarşıya qoyulmuş tapşırıqları yüksək məsuliyyət hissi və ləyaqətlə yerinə yetirərək möhtərəm Prezidentin rəhbərliyi altında ölkəmizin ən təhlükəsiz məkanlardan birinə çevrilməsi üçün olduqca əhəmiyyətli bir fəaliyyət ortaya qoyur".

Azərbaycan Polisi həmişə ölkədə cinayətkarlığa qarşı mübarizədə, respublikada sabitliyin bərqərar olması yolunda öz peşəkar fəaliyyəti ilə yanaşı, humanizmi, örnək davranışı ilə də cəmiyyətdə xüsusi rəğbət və nüfuz qazanıb. Uzun illərdir ki, Azərbaycan Polisi cinayətkarlığa qarşı yorulmadan mübarizə aparır, öz vətəndaşının hüquqlarını qoruyur və asayişin keşiyində ayıq-sayıq dayanır. Azərbaycan xalqı da öz növbəsində polisinə güvənir. Məhz buna görə də Azərbaycanda bu gün polis-cəmiyyət vəhdətinin uğurlu nümunəvi modeli mövcuddur. Bayramın mübarək, Azərbaycan Polisi!

✍ **Sevinc Abdullayeva, *"İki sahil"***

# Bakı Ali Neft Məktəbinin tələbələri xaricdə ixtisasartırma kurslarına göndəriləcək

**Bakı Ali Neft Məktəbində (BANM) Heydər Əliyev Fondunun və "Technip FMC" şirkətinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Soltan Məmmədov, baş mütəxəssis Sabiq Abdullayev, "Technip FMC" şirkətinin Azərbaycan üzrə meneceri Luigi Fiorentino, şirkətin ofis meneceri və layihələr üzrə koordinatoru Səbinə Abbasova və BANM-in məsul əməkdaşları iştirak ediblər.**




Görüş zamanı BANM-in xarici şirkətlər və universitetlərlə qurduğu əməkdaşlıq, ali məktəbin tələbə və məzunlarının qazandığı uğurlar, professor-müəllim heyətinin dərslərə yanaşma tərzi və əməkdaşlığın daha da genişləndirilməsi üzrə müzakirələr aparılıb.

Görüşdə Heydər Əliyev Fondunun Technip FMC şirkətinin Azərbaycan nümayəndəliyi ilə birgə həyata keçirdiyi "Texnoloji biliklərin ötürülməsi üzrə magistratura proqramı" layihəsindən bəhs olunub.

BANM-in rektoru Elmar Qasımov qonaqları ali məktəbdə görməkdən məmnun olduğunu ifadə edib. Daha sonra rektor BANM tələbələrinə göstərdiyi etimada görə Heydər Əliyev Fondunun və "Technip FMC" şirkətinin nümayəndələrinə təşəkkürünü bildirib.

Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Soltan Məmmədov layihəyə verdiyi dəstəyə görə rektor Elmar Qasımova təşəkkür edib. Vurğulayıb ki, ali məktəbin tələbələri hər yerdə yüksək təhsil, bacarıq və davranışı ilə seçilir və ona görə layihə üçün seçimlərdə BANM tələbələri nəzərdə tutulub.

Layihədə BANM-in neft-qaz və kimya mühəndisliyi ixtisasında təhsil alan 4-cü kurs tələbələri iştirak edəcəklər. Layihənin ilkin mərhələsində Azərbaycandan seçilmiş 50 tələbənin kurslarda iştirakı nəzərdə tutulur ki, onlardan da 25 nəfəri BANM tələbələrinin payına düşür. Layihə 3 mərhələdən ibarət olacaq. Birinci mərhələdə 5 modul üzrə 6 həftə ərzində təlimlər keçiriləcək. Təlimlərin sonunda tələbələrə sertifikatlar təqdim olunacaq. İkinci mərhələdə hər modul üzrə nəticələrə əsasən seçilmiş tələbələr İtaliya, Norveç, Fransa və Azərbaycanda 2 ay ərzində ixtisasartırma kurslarında iştirak edəcəklər. 3-cü mərhələdə isə layihədə iştirak etmiş tələbələrin işlə təmin olunması nəzərdə tutulub.

Seçimlər "Technip FMC" və Heydər Əliyev Fondu, eləcə də universitet nümayəndələri tərəfindən müəyyən olunmuş işçi qrup tərəfindən ediləcək.

Layihənin BANM üzrə koordinasiya işləri ali məktəbin Mühəndislik fakültəsinin dekan müavini Rima Quliyevaya həvalə olunub.

✍ **Zamin Məmmədov, *"İki sahil"***

# *Rauf Əliyev:* Azərbaycanın UNESKO ilə əməkdaşlığı çox yüksək səviyyədədir



İyunun 30-da Bakı şəhərində, Heydər Əliyev Mərkəzində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimi keçirilib. Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında dünyanın 180-dan çox ölkəsindən 2500-dən artıq nümayəndəsi iştirak edir. Nümayəndə heyətlərinin tərkibində sessiyanın işinə nazirlər, müxtəlif təşkilatların baş direktorları, beynəlxalq qurumların Azərbaycandakı təmsilçiləri və səfirləri, Azərbaycan hökumətinin üzvləri qatılıblar.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əlyeva mərasimdə çıxış edib. Mehriban xanım Əliyeva çıxışında bildirmişdir ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra mədəni, tarixi və dini irsin qorunması Azərbaycanın dövlət siyasətində əsas prioritetlərdən birinə çevrilib və son illərdə Azərbaycan UNESKO-nun tərəfdaşlığı ilə bir sıra möhtəşəm layihələrə, forumlara, tədbirlərə ev sahibliyi edib.

Dünya Mədəniyyət Mirasları Syahısı UNESKO-nun Ümumdünya İrs Komitəsi tərəfindən təyin olunmuş və yerləşdikləri ölkələrin dövlət orqanları tərəfindən zəmanət verilmiş, bütün dünya üçün əhəmiyyətli bir dəyər daşıdığı qəbul edilən təbii və mədəni abidələrin siyahısıdır. Dünya Mədəniyyət Mirasları siyahısının yaradılmasında məqsəd, bütün insanlara məxsus olan dəyərlərin qorunmasında beynəlxalq əməkdaşlığı həyata keçirməkdir. Müntəzəm olaraq yenilənən siyahıya 2004-cü ildən etibarən 134 ölkəyə aid 788 abidə daxil edilmişdir. Bunlardan 617-si mədəniyyət, 154-ü təbii, 23-ü isə mədəni və təbii abidələrdir. Azərbaycandan bu siyahıya Bakı şəhərinin tarixi incisi olan "İçərişəhər" Dövlət, Tarix-Memarlıq Qoruğu, Şirvanşahlar Sarayı Kompleksi, Qız Qalası və Qobustan Milli Tarix-Bədii Qoruğu daxil edilmişdir. Bu il ölkəmiz tərəfindən Şəkinin Xan Sarayı ilə birgə şəhərin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına salınması təklif edilib. Bundan əlavə müvəqqəti siyahıya Azərbaycandan ümumilikdə 22, o cümlədən 5 təbii və 17 mədəni abidə daxil edilmişdir ki, gələcəkdə bunların da daimi siyahıya salınmasına baxılacaqdır.

Azərbaycan Respublikası 1992-ci ildə UNESKO-ya üzv qəbul edilib, 1996-cı ildə isə təşkilat ilə Azərbaycan arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Bu il əməkdaşlığımızın 27-ci ildönümü qeyd olunacaq. Azərbaycan ilə UNESKO arasında əməkdaşlıq bir çox sahələrdə - mədəniyyət, elm, təhsil və digər sahələrdə uğurla davam etdirilir. Bu əlaqələrin yaradılmasında, inkişaf etdirilməsində və belə yüksək səviyyəyə çatmasında Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri vardır. Onun bu sahədəki fəaliyyəti nəticəsində Azərbaycanla UNESKO arasındakı əməkdaşlıq yüksək səviyyəyə çatmışdır. Bakıda öz işinə başlayan Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası buna bariz nümunədir.

Bütün bunlar Azərbaycanın artan beynəlxalq nüfuzundan xəbər verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hərtərəfli düşünülmüş siyasət göstərir ki bundan sonra da Azərbaycanın uğurları bütün sahələrdə durmadan artacaq.

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azneft" İstehsalat Birliyi

**idarələrinin tələbatına əsasən kimyəvi reagentlərə açıq satınalma müsabiqəsi (11105AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 30.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 06.08.2019-cı il, Bakı vaxtı ilə saat 11:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin emtək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər LOT 1 üzrə 1180 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120 AZN,
AZ28IBAZ38110018409306332120 USD,
AZ08IBAZ38110019789306332120 EUR,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 90 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***
* LOT-1 üzrə İddiaçının müsabiqə üzrə 2 500.00 AZN təminat tələb olunur.
* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.
* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.
* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.
* Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1000, Bakı şəhəri, Səbail rayonu Neftçilər prospekti, 73
**Əlaqələndirici şəxs:** Orucov Mirismayıl
Satınalmalar və təchizat şöbəsi, ekspert
+99450 841 12 62
+99412 521 12 62
+99412 521 11 72
Mirismayil.orucov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdiriliyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 06.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Geofizika və Geologiya İdarəsi

**Kəşfiyat və istismar quyularında lay təzyiqinin ölçülməsi işlərinin satın alınması üzrə (12006-19/S) AÇIQ MÜSABİQƏYƏ DƏVƏT**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 10.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və/ya İngilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 16.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və/ya İngilis dilində əldə etmək istəyənlər
* LOT-1 üzrə 472.00 manat (ƏDV daxil olmaqla),

Ödəniş edərkən ödənişi təsdiq edən bank tapşırığında açıq satınalma prosedurunun nömrəsi qeyd olunmalıdır.

və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müsabiqə təklifinin təminatı:***
Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyasının etibarlılıq müddəti müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 40 bank günü olmalıdır.
* Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası - tətbiq olunmur.

***V. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 365 təqvim günü sifariş əsasında yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
Azərbaycan Respublikası, Bakı şəhəri, N.Nərimanov rayonu, Heydər Əliyev pr-ti 83 A AZ1033 (indeks),
**Əlaqələndirici şəxs:**
Tural Mustafazadə
Satınalmaların təşkili şöbəsi, mühəndis
Telefon: (+99 412) 521-04-17
Faks: (+99 412) 521-04-17
tural.mustafazade@socar.az
Ilyas.Baqiyev@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdiriliyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 16.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Geofizika və Geologiya İdarəsinin satınalmalar qrupu**

# Üç təhlükəsizlik şefinin Qüds görüşü: ziddiyyətli məqamların gizli və aşkar tərəfləri



**Qüdsdə Rusiya, ABŞ və İsrail nümayəndə heyətlərinin görüşü az qala ən böyük sensasiya kimi təqdim edilir. Lakin hadisəni şişirdənlərin özləri də yekdil mövqedə deyillər. Bir qrup bəzi prinsipial məsələlərdə razılığın əldə edildiyini, digərləri isə əksini iddia edirlər. Hər iki yanaşmada informasiya savaşının əlamətləri özünü göstərir. Bu da başadüşüləndir, çünki müzakirə obyekti geosiyasi baxımdan çox həssasdır və çox sayda dövlətin maraqları ilə kəsişir. Buna baxmayaraq, əlbəttə, Qüdsdə iştirakçılar müəyyən məsələləri müzakirə ediblər və ya ən azından fikir mübadiləsi aparıblar. Problemin bu aspektinin analizi üzərində geniş dayanmağa ehtiyac görürük.**

### Bolton, Patruşev və Ben-Şabat: nəyi və necə müzakirə ediblər?

Dünya KİV-ləri ABŞ, İsrail və Rusiyanın təhlükəsizlik məsələləri üzrə ali nümayəndələrinin Qüdsdəki görüşü haqqında böyük hay-küy qaldırıblar. Con Bolton, Nikolay Patruşev və Meir Ben-Şabatın apardıqları müzakirələr az qala Yaxın Şərqin geosiyasi taleyinin həlledici məqamı kimi təqdim edilir. Lakin bir sıra yazılarda bu görüşün lazımi səmərə vermədiyi vurğulanır. Hər iki qiymətləndirmə, bizcə, təlasik çıxarılan və ya xəyal edilən məqsədlərə haqq qazandırmaq üçündür. Təbii ki, dünyanın üç güclü təhlükəsizlik sisteminə malik olan ölkəsinin əvvəllər müşahidə edilməyən formatda nələrisə gözdən keçirməsi diqqət yetirilməli haldır. Bununla yanaşı, Yaxın Şərq ancaq həmin dövlətlərin istəyi ilə formatlaşmır. Regionun digər güclü ölkələri, dünyanın digər super geosiyasi gücləri də var.

Belə çıxır ki, Bolton-Patruşev-Ben-Şabat görüşünün əhəmiyyətinin vurğulanması ilə yanaşı, təbliğat xatirinə şişirdilməsi və ya azaldılması da müşahidə edilir. Bu iki ifrat yanaşmanın işığında görüşün real aspektlərinin geosiyasi analizi maraq doğurur.

Bu formatda görüş ilk dəfədir ki, reallaşır. Onun təşəbbüskarı İsrailin Baş naziri Binyamin Netanyahudur. B.Netanyahu parlament seçkisində qalib gəlsə də, koalisiya hökumətini qura bilmədi. Reytinq baxımından çətin vəziyyətə düşmüş dostunu Vaşinqton hər vəchlə yenidən xilas etməyə çalışır. Ekspertlər bu məqsədlə Vaşinqtonun İrana qarşı daha sərt addımlar atdığını və Colan təpələri ilə bağlı məlum təxribatçı qərarı vurğulayırlar. Rusiya Təhlükəsizlik Şurasının katibi ilə görüş isə bu sırada daha təsirli addım ola bilər. Çünki məhz Rusiya Avrasiyada İrana daha çox təsir imkanına malik olan ölkədir. Bir neçə ay öncə Binyamin Netanyahu, Con Bolton və Avstriyanın Prezidenti Aleksander Van der Bellen Rusiya dövlət başçısı Vladimir Putinlə İran məsələsini İsrail ssenarisi üzrə həll etməklə bağlı müzakirə aparmışdılar. Onda Rusiya Prezidenti təmkinlə müzakirə invanının Tehran olduğuna işarə etmişdi.

Deməli, Qüds görüşünün qısa tarixçəsi var. Fərq ondan ibarətdir ki, Təl-Əviv dünyaya nümayiş etdirməyə çalışır ki, ABŞ və Rusiyanı İran məsələsində öz xeyrinə bir araya gətirə bilər. Bəs bu alındımı? Görüşdə müzakirə olunan məsələlərin konkret məzmunu KİV-ə məlum olmadığından, danışıqların iştirakçılarının ifadə etdikləri fraqmentar xarakterli fikirlərdən müəyyən mənzərə yaratmaqdan başqa çarə yoxdur.

ABŞ və İsrail tərəfi müəyyən razılaşmanın olduğundan bəhs edir, o cümlədən, Suriyanın gələcək siyasi taleyi ilə əlaqədar ortaq fikir olduğunu ifadə edirlər. Ancaq N.Patruşevin bir qeydində bu məsələdə də tam razılığın olmadığı hiss olunur. Amerika və İsrail regionda "sülhpərvər və təhlükəsiz Suriyanın mövcudluğunun" qəbul edildiyini vurğulayırlar. N.Patruşev isə buna "suveren, ərazi bütövlüyü bərpa edilmiş və müstəqil Suriya" şərtlərini əlavə edib. Belə çıxır ki, İsrail və Rusiyanın "təhlükəsiz və sülhpərvər Suriya" anlayışları məzmunca fərqlənir.

Məsələnin digər ziddiyyətli tərəfi İranın Yaxın Şərqdə geosiyasi-hərbi iştirakı ilə bağlı mövqelərin kardinal surətdə bir-birindən fərqlənməsi ilə bağlıdır. Amerika və İsrail İranın Suriya və İraqdakı mövcudluğunu Moskvanın tam nəzarət altına almasını və mümkün olsa, Suriya, Livan və Yəməndən onun tamamilə çıxarılmasını arzulayırlar. Bu tələbə N.Patruşev aydın cavab verib: İranın Suriyadakı hərbi mövcudluğu Dəməşqin dəvəti əsasındadır və onu Bəşər Əsədlə müzakirə etmək lazımdır.

Ayrıca, Moskva hesab edir ki, İran Suriyada terrorla mübarizədə fəaldır və bu xidməti heçə saymaq olmaz. Bir sözlə, İranın Suriyada hansı statusda qalması məsələsi ilə bağlı Kreml məsuliyyəti üzərinə götürmək fikrindən uzaqdır. Ona görə yox ki, kimdənsə çəkinir. Ona görə ki, ABŞ və İsrailin istədiyinin əksini düşünür. Belə ki, Moskva İranın Yaxın Şərqdə güclü olmasını istəyir. Çünki regionda ən yaxın geosiyasi müttəfiqi İrandır.

### İran və Suriya: bazarlıq obyektləridirmi?

Bu səbəbdəndir ki, N.Patruşev amerikalı və israilli həmkarlarına ABŞ-ın pilotsuz uçan təyyarəsinin İranın hava sərhədini pozduğuna görə vurulduğunu deyib. Bunu sübut edən faktlar Rusiya Müdafiə Nazirliyində mövcuddur. Hörmüz boğazındakı tankerlərin vurulması haqqında Qərbin təqdim etdiyi informasiya isə "qeyri-peşəkar hazırlanıb". Yəni yalandır və onu lazımi səviyyədə peşəkarcasına təqdim edə bilməyiblər. Bu, faktiki olaraq, hər iki məsələdə İranın mövqeyini açıq və birmənalı müdafiə etmək, dolayısı ilə bütövlükdə Tehranın Yaxın Şərqdəki fəaliyyətinə haqq qazandırmaqdır. Təbii ki, Suriya bu sırada ilk yerdədir. Bu halda hansı ümumi razılıqdan söhbət gedə bilər?

Bunlarla yanaşı, KİV bir məqamı xüsusi təqdim etməyə çalışır: tərəflər Osakoda V.Putinlə D.Trampın görüşərək müzakirələri davam etdirmələri haqqında razılığa gəliblər. Doğrudan da, bu tezisi iştirakçıların hamısı qəbul edir. İndi məlumdur ki, Osakoda prezidentlər görüşüblər, lakin hansısa ortaq qərar haqqında heç bir informasiya yoxdur. Adi məntiq də göstərir ki, dövlət başçılarının həmin məsələdə ümumi razılığa gəlməsi bu mərhələdə mümkün deyildir. Çünki V.Putin İrandan, D.Tramp isə İsraildən vaz keçən deyillər. Bu "suayırıcı zona" qalırsa, prinsipial razılıqdan söhbət gedə bilməz. O başqa məsələdir ki, tərəflər müzakirələri davam etdirmək haqqında ortaq fikrə gələ bilərlər.

Lakin İsrail KİV-i bütün bunların fonunda bir fikri israrla yaymağa çalışır. Qüdsdə Amerika, Rusiya və İsrail İranın neytrallaşdırılması ilə bağlı müəyyən razılığa gəliblər. Məsələn, israilli ekspert Aviqdor Eskin yazır ki, danışıqların məzmunu məlum olmasa da, inamla təxmin edə bilərik ki, Amerika və İsrail tərəfi Suriyanı İranın hərbi-siyasi mövcudluğundan azad etməkdən daha çox danışıblar. "İlk baxışdan, Rusiyanın bunda az maraqlı olmadığı görünür. İranın Suriyada mövcudluğu bu mərhələdə Moskva üçün zərərlidir. Bu, artıq Moskva ilə Tehran arasında kimin B.Əsədə daha çox təsir etməsi ilə bağlı rəqabət deyil, ancaq rusiyapərəst və iranpərəst silahlı qrupların birbaşa toqquşmasıdır" (bax: V Ierusalime zalojena osnova triumviratu SŞA, Rossii i İzrailə / "Regnum", 26 iyun 2019).

Fikirlərinə davam edərək, ekspert vurğulayır ki, İran həm də Rusiyanın əlində kartdır. "Belə təxmin etmək olar ki, Moskva İran üzrə Vaşinqton və Yerusəlimlə geniş əməkdaşlığa gedəcək". Yəni Moskva İranın Suriyadan çıxarılması əvəzində B.Əsədin İsrail və ABŞ tərəfindən tanınmasını tələb edə bilər.

Buna bənzər iddialara rast gəlinir. Lakin onların hamısı xəyalların və ya gizli istəklərin məhsuludur. Rusiya Təhlükəsizlik Şurası katibinin ifadə etdiklərindən birmənalı aydın olur ki, prinsipial məsələlərdə Moskva İranla bağlı bazarlıq etməyəcək! Çünki məsələ ancaq Suriya ilə əlaqəli deyil. Rusiya özünün geosiyasi müttəfiqi ilə münasibətləri uzunmüddətli təsəvvür edir. Ona görə də hansısa keçici maraqlara görə bu mövqeyini dəyişməz. Əgər Rusiya onu edərsə, onunla kimsə müttəfiqlik etməz.

Deməli, əslində, Rusiyanın İran məsələsində ABŞ və İsraillə birgə hərəkət edəcəyi ilə bağlı informasiyalar yayılırsa, bu, xüsusi məqsədlə edilir və reallığa uyğun görünmür. Söhbət ondan getmir ki, Yaxın Şərqdə Rusiya-İran əməkdaşlığına kimsə çox müsbət yanaşır. Burada əsas məqam Qüdsdəki danışıqlardan kimin hansı məqsədlə informasiya faktoru kimi istifadə etməyə çalışdığını göstərməkdən ibarətdir.

Beləliklə, Qüds görüşü həqiqətən tarixi əhəmiyyət kəsb edir. Dünya bir daha Yaxın Şərqdə hansı dövlətin nə kimi məqsədləri güddüyünü aydın gördü. Müzakirə aparan dövlətlərdən heç biri Yaxın Şərqin mütləq əksəriyyətini təşkil edən xalqları təmsil etmirlər. İsrail regiona aid olsa da, təkbaşına böyük problemləri həll etmək hüququna malik deyil. Onda belə çıxır ki, Yaxın Şərqlə bağlı yerli dövlətlərin iradəsi olmadan nələrəsə nail olmağa çalışanlar var. Həm də onlar regionun böyük dövlətlərindən olan İranın oyundan kənar qalması variantlarını müzakirə edirlər. Sonra növbə hansı müsəlman dövlətinindir? Ümumiyyətlə, Qüdsdə hansı əsasla bu üç dövlət müsəlman ölkələrinin taleyini həll etməyə çalışırlar? Kim onları qəyyum edib?

**Newtimes.az**

---

## *Deputat:* Maaş artımları sahibkarlığın inkişafına müsbət təsir edəcək



Cari ilin əvvəlində Prezident İlham Əliyev 2019-cu ilin sosial inkişaf və əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacağını bəyan etmişdi. Dövlət başçısı qeyd etmişdi ki, biz əlavə gəlirləri ilk növbədə vətəndaşların sosial müdafiəsinə yönəltməliyik. Heç şübhəsiz ki, bu, belə də oldu və maaş və pensiyaların artımı ilə bağlı bir sıra qərarlar verildi.

Bütün bunlarla yanaşı, dövlət başçısının iyunun 18-də imzaladığı 17 sərəncamla ilin əvvəlindən start götürən sosial islahatların ikinci mərhələsi başladı. Bu mərhələdə minimum aylıq əməkhaqqı 180 manatdan 250 manata çatdırılacaq, hərbi və hüquq mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşları artırılacaq. Artımlar, ümumilikdə, 20-50 faiz təşkil edəcək.

Belə ki, orta aylıq əməkhaqqı artımı ilə bağlı proqnoz bu il üçün 15 faizdir. Buna uyğun olaraq 2020-ci ilin 1 yanvar tarixindən bütün pensiyaçıların pensiyası indeksasiya nəticəsində əlavə 15 faiz artacaq. Beləliklə, hazırda 160 manat alan pensiyaçı oktyabrdan 200 manat, yanvardan isə 230 manat pensiya alacaq.

Bütün bu artımlar ölkədə müxtəlif sahələrin inkişafına təsir göstərir. Onlardan biri də kiçik və orta sahibkarlıqdır. Məsələ ondadır ki, sözügedən artımlar əhalinin alıcılıq qabiliyyətini artırır. Buna görə də sahibkarın daha çox məhsul istehsal etməsinə, əhaliyə göstərilən xidmətin həcminin genişlənməsinə iqtisadi zəmin yaranır. Bütün bunlar, əlbəttə ki, kiçik və orta sahibkarlığın inkişafına stimul verir.

Milli Məclisin deputatı Aydın Mirzəzadə mövzu ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki, məlum artımlar bu və ya digər dərəcədə kiçik və orta biznesin inkişafına müsbət təsir edəcək: "Məsələ ondadır ki, 2019-cu ilin əvvəlindən əməkhaqları, pensiyalar, təqaüdlər artırılıb. Bunun nəticəsində əhalinin gəlirləri artır. İyunun 18-də cənab Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla hüquq mühafizə orqanları əməkdaşlarının, müəllimlərin, hərbçilərin, dövlət büdcəsindən maliyyələşən bəzi təşkilatlarda çalışan işçilərin əməkhaqları artırılıb. Bu məqsədlə büdcədən illik əlavə 1 milyard manat xərclənəcək. Şübhəsiz ki, maaş artımları birbaşa və dolayı olaraq sahibkarlığın inkişafına müsbət təsir edəcək".

A.Mirzəzadə qeyd etdi ki, tələbat yarandığı üçün sahibkarlar daha çox məhsul istehsal edərək bazara çıxarmaqda maraqlı olacaqlar: "Eyni zamanda, buna görə yeni iş yerləri yaratmalı olacaqlar. Belə ki, bütün bunlar bir-biri ilə sıx əlaqəlidir. Ona görə də hesab edirəm ki, ölkə əhalisinin gəlirlərinin artması kiçik və orta sahibkarlığın inkişafına stimul verir. Bu baxımdan artımların bu yöndə müsbət təsirləri olacaq".

**Cavid Əkbərov,**
***"İki sahil"***

---

## Müəllim adının ucalığında



Həyatda öz xoşbəxtliyini sevib-seçdiyi müəllimlik peşəsində görən Aytac Kazımlı Masallı rayonundakı Ərkivan qəsəbə Z.Nəcəfov adına 2 saylı məktəbin sinif müəllimidir. Dərin biliyi, əsl müəllimə xas yüksək mədəniyyəti, zəngin mənəvi aləmi, ən əsası işinə sədaqəti ona el-obada, çalışdığı kollektivdə böyük hörmət qazandırıb. A. Kazımlı qəlbinin hərarətini, gözünün nurunu zərrə-zərrə körpə fidanların yoluna çiləməklə müqəddəs müəllim adını hər şeydən uca tutur.

Gənc olmasına baxmayaraq, Aytac Kazımlının fəaliyyətində olan uğurlar nümunə və örnək sayıla bilər. O, müəllimlərin işə qəbul üzrə müsabiqədə 50 bal toplayıb. Öz üzərində müntəzəm çalışır, təlim-tədrislə bağlı meydana çıxan ən yeni müasir üsulları mənimsəyə bilir. Məhz bunlara görə Təhsil Nazirliyinin "Bizim müəllim" layihəsinin yeni təqdimatı Aytac Kazımlıya həsr edilib.

Məlumat üçün deyim ki, "Bizim müəllim" layihəsi respublikanın bütün bölgələrində peşəsini gözəl bilən, bu sahədə təmiz nüfuza malik, eləcə də işə qəbul üzrə müsabiqədə və diaqnostik qiymətləndirmədə yüksək bal toplayan işıqlı, zəkalı müəllimlərin tanıdılmasına xidmət edir.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

## Azərbaycan neft hasilatının azaldılmasına dair sazişin müddətinin uzadılması ilə bağlı təklifi dəstəkləyib



İyulun 1-də Vyanada "OPEC plus" Nazirlərinin Birgə Monitorinq Komitəsinin 15-ci iclasında mövcud kvotalara dəyişiklik edilmədən neft hasilatının azaldılmasına dair "Əməkdaşlıq Bəyannaməsi"nin icra müddətinin daha 9 ay uzadılması təklif olunub.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, tədbirdə çıxış edən Energetika naziri Pərviz Şahbazov ötən ilin dekabrında qəbul edilmiş "Əməkdaşlıq Bəyannaməsi" üzrə öhdəliklərin artıqlaması ilə yerinə yetirilməsi nəticəsində neftin qiymətinin kəskin ucuzlaşmasının qarşısının alındığını deyib. Bildirib ki, həm istehsalçı, həm də istehlakçıların maraqlarına cavab verən qiymət həddi formalaşıb: "Lakin mayın sonundan başlayaraq yenidən neftin qiymətinin ucuzlaşma tendensiyasını müşahidə edirik. Bu il qlobal neft tələbatının ötən illə müqayisədə gündəlik 1 milyon 140 min barrel artması ilə bağlı proqnozlara baxmayaraq, bazarda həddindən çox neft tədarükü var. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ölkələrində neft ehtiyatları artmaqda davam edir. Qlobal neft təklifinin növbəti illərdə də tələbatı üstələyəcəyi gözlənilir. Ona görə də, tənzimləmə tədbirlərini davam etdirməklə neft hasilatının məhdudlaşdırılması ilə bağlı razılaşmanın müddətinin uzadılmasına ehtiyac var", - deyə nazir əlavə edib.

Nazir çıxışında may və iyun aylarında Azərbaycanın gündəlik neft hasilatını 20 min barrel azaltmaqla bağlı öhdəliyini tam yerinə yetirdiyini, razılaşmanın qüvvədə olduğu 6 ay ərzində orta gündəlik neft istehsalının 125 faiz icra edildiyini də bildirib.

P.Şahbazov iclasda razılaşmanın müddətinin uzadılması təklifinə Azərbaycanın dəstək verdiyini diqqətə çatdırıb.

Qeyd edək ki, neft hasilatının azaldılması üzrə sazişin müddətinin daha 9 ay uzadılması ilə bağlı təklif OPEC Nazirlər Şurasının 176-cı iclasında da müzakirə ediləcək. İyulun 2-də isə OPEC-ə üzv və qeyri-üzv dövlətlərin nazirlərinin 6-cı görüşündə qərarın qəbul ediləcəyi gözlənilir.

# Moskvadakı "Azərbaycan" pavilyonu Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunur

**Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki (XTNS) "Azərbaycan" pavilyonunda Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa işləri aparılır.**




AZƏRTAC xəbər verir ki, bərpa işləri binanın eksteryer və interyerini əhatə edir. Burada orijinal rənglər saxlanılmaqla, naxışlar, şəbəkə pəncərələr dəqiqliklə yenidən qurulur, pavilyonun zalları yenilənir.

Qeyd edək ki, əvvəllər SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi, 1992-2014-cü illərdə isə Ümumrusiya Sərgi Mərkəzi adlandırılan bu məkan dünyanın ən böyük sərgi komplekslərindəndir. XTNS-nin ərazisi Sovet dövründə yaradılan memarlıq abidələri ilə zəngin olub. "Ostankino" parkı ilə birləşdirildikdən sonra onun ümumi ərazisi 325 hektardan çoxdur.

XTNS-nin incilərindən olan "Azərbaycan" pavilyonu 1939-cu ildə tikilib. Layihənin müəllifləri olan memarlar Sadıq Dadaşov və Mikayıl Hüseynov II dərəcəli Stalin mükafatı ilə təltif olunublar. Pavilyon Azərbaycan milli motivləri ilə zəngindir. Bina düzbucaqlıdır, divarlar mərmərlə işlənib. Fasad Azərbaycan naxışları, qızılı rəngdə üzüm ornamentləri ilə, pavilyonun pəncərələri isə vitrajşəbəkə ilə bəzədilib. Pavilyonun ekspozisiyası Azərbaycan SSR-in sənaye, heyvandarlıq, ipəkçilik, bitkiçilik, kənd təsərrüfatı, mədəniyyət, sənət və məişət sahələrində nailiyyətlərini əhatə edirdi.

2016-cı ildə pavilyon rəsmi olaraq Azərbaycana təhvil verilib və burada bərpa işlərinə başlanılıb.

Pavilyonda yeni sərgi mərkəzinin yaradılması nəzərdə tutulur.

Yenilənmiş pavilyonun konsepsiyasının əsas ideyası Azərbaycanın zəngin tarixə malik qədim, eyni zamanda, sürətlə inkişaf edən bir dövlət olduğunu nümayiş etdirmək üzərində qurulub.

"Azərbaycan inciləri" sərgi zonasında qonaqlar Azərbaycanın xalçaçılıq ənənələri, zəngin musiqi tarixi ilə tanış ola bilərlər. Burada, eyni zamanda, arxeoloji qazıntılar zamanı aşkar olunan və Azərbaycanın qədim tarixini əks etdirən eksponatlar, milli geyimlər, xalq sənəti nümunələri nümayiş etdiriləcək.

Pavilyonda, eyni zamanda, müasir Azərbaycan, ümummilli lider Heydər Əliyev, Azərbaycanın tanınmış ziyalıları barədə müxtəlif materiallar, foto və videolarla tanışlıq mümkün olacaq.

Mühazirə və konfranslar, musiqi proqramları üçün müxtəlif zalların yaradılması, turizm zonasında Azərbaycanın turizm marşrutları barədə məlumatların təqdimatı nəzərdə tutulur.

"Ticarət evi" zonasında isə Azərbaycan istehsalı olan məhsullar təqdim ediləcək, eyni zamanda, burada milli suvenirləri əldə etmək mümkün olacaq.

Pavilyonda, həmçinin Azərbaycanın tarixi və müasir həyatına, müxtəlif sahələrə dair kitablar da nümayiş olunacaq. Burada, eyni zamanda, əyləncə zonalarının yaradılması nəzərdə tutulur.

# UNEC-də Məzun Günü






UNEC-də keçirilən "Məzun Günü" bir çox yeniliklərlə yadda qalıb.

"Baku Kristall Hall"da keçirilən təntənəli mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Tədbirdə universitetin rəhbərliyi, professor-müəllim heyəti, məzunlar və valideynlərlə yanaşı, dövlət rəsmiləri, Milli Məclisin deputatları, xarici qonaqlar, ictimaiyyət nümayəndələri və UNEC-in fəxri məzunları iştirak edib.

UNEC-in rektoru, professor Ədalət Muradov məzunları təbrik edərək, onlara müstəqil, peşəkar həyata baş vurmağın çətin olduğu qədər, maraqlı və həyəcanlı olduğunu deyib. Məzunları yeni nailiyyətlər, ciddi sınaqların gözlədiyini deyən rektor, onların əməyinin müsbət nəticələr verəcəyinə əminliyini bildirib. Bu əminliyin ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclərin təhsili ilə bağlı dövlət siyasətinə, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilə diqqət və qayğısına əsaslandığını vurğulayıb. UNEC-in Avropanın aparıcı universitetləri ilə uğurlu ikili diplom proqramları reallaşdırdığını deyən Ə.Muradov, bu ali təhsil müəssisəsinin məzunlarının dünyanın aparıcı universitetlərinin tələbələri ilə rəqabət apara biləcək potensiala malik olduğunu bildirib. Sonda rektor məzunlara dayanmadan çalışmağı, biliklərini yeniləməyi, mənəviyyatı hər şeydən üstün tutmağı və mənəvi lider olmağı tövsiyə edib.

Tədbirdə Azərbaycan Dövlət İqtisad Universitetindən məzun olan Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov barədə videoçarx nümayiş olunub. Videoçarxda V.Hüseynovun orta məktəb şəhadətnaməsi, universitet diplomu, qiymət cədvəli, fotoşəkilləri və ictimai siyasi fəaliyyəti ilə bağlı məlumatlar əks etdirilib.

DMX-nin rəisi Vüsal Hüseynov xatirələrlə zəngin təqdimata görə universitet rəhbərliyinə təşəkkürünü bildirib. UNEC-in Fəxri məzunu kimi uğur hekayəsini bölüşən V.Hüseynov İqtisad Universitetinin onun həyatında önəmli rol oynadığını deyib. Harvard Universitetinə gedən yolda bu ali təhsil müəssisəsinin çox vacib təməl olduğunu diqqətə çatdırıb. V.Hüseynov UNEC məzunlarına verdikləri universitetin onlara verdiyi üstünlüklərdən maksimum yararlanmağı, qərarlarında məsuliyyətli olmağı, bilik və bacarıqlarını daim inkişaf etdirməyi tövsiyə edib.

Çıxışdan sonra UNEC-in Fəxri məzunu Vüsal Hüseynova şəxsi arxivi üçün orta məktəb şəhadətnaməsi hədiyyə olunub.

"Məzun Günü"ndə UNEC-in ikili diplom proqramlarının məzunlarına Avropa diplomları təqdim edilib. Fransanın Monpelye Universitetini bitirən 13 bakalavr və İsveçrənin UBİS universitetini bitirən 4 magistrə həmin universitetlərin diplomları verilib.

Hər il olduğu kimi, bu il də ən yüksək bal (99.0125) topladığına görə adı UNEC-in Fəxri daşına həkk edilən Beynəlxalq İqtisadiyyat Məktəbinin məzunu Pakizə Vəlizadə çıxış edib. UNEC-in məzunu olması ilə qürur duyduğunu ifadə edən P.Vəlizadə təhsil aldığı Beynəlxalq İqtisadiyyat Məktəbinin tələbələrinin artıq 5-ci ildir ki, adlarını universitetin tarixinə uğurlu tələbə kimi yazdırdıqlarını diqqətə çatdırıb.

P.Vəlizadə ənənəyə uyğun olaraq UNEC-in bayrağını III kurs üzrə ən yüksək nəticə göstərən Ekspertiza və standartlaşdırma fakültəsinin tələbəsinə təhvil verərək, 4122 məzun adından təntənəli and içib.

Sonra ənənəvi "papaqatma" mərasimi keçirilib.

Tədbirdə populyar bəstəkar, müğənni Əməkdar artist Miri Yusif və Murad Arif tələbələri məzun olmaları münasibətilə təbrik edərək, özünəməxsus ifaları ilə onlara unudulmaz anlar yaşadıblar. Populyar DJ Chına isə dinamik mahnıları ilə "Məzun Günü"ndə gəncləri əyləndirib.

2018/19-cu tədris ilində UNEC-dən 4122 gənc məzun olub. Onlardan 3102-i bakalavr, 1020-si isə magistrdir.

**Zamin Məmmədov,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**UPS qurğusuna olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11008AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 25.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 01.08.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər istəyənlər 472 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
* Hesab nömrəsi: USD
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD
* Hesab nömrəsi: EUR
Intermediary Bank: Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
* Hesab nömrəsi: GBR
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin təchizat 40 təqvim günü ərzində icra olunması tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

*I. İddiaçının müsabiqə təklifinin təminatı 7000 AZN və ya ona ekvivalent dəyərdə ABŞ Dolları və Avro ilə tələb olunur. (Təminat ayrıca bağlı zərfdə təqdim olunmalıdır)*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

*V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.*

*VI. Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.*

*VII. Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.*

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB
**Əlaqələndirici şəxs:** Qasımov Vüqar
Satınalmalar və Təchizat şöbəsi, mühəndis
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 382 (daxili)
korporativ mobil nömrəsi: +99450 841 13 82
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: Vugar.Qasimov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 01.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

---

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**elektrik mallarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11086AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 30.07.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin emtək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər LOT 1 üzrə 118 AZN (ƏDV daxil) LOT 2 üzrə 118 AZN (ƏDV daxil) LOT 3 üzrə 177 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
* Hesab nömrəsi: USD
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD
* Hesab nömrəsi: EUR
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
* Hesab nömrəsi: GBR
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin təchizat 60 gün ərzində icra olunması tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

*I. İddiaçının müsabiqə təklifinin təminatı 2 300 AZN və ya ona ekvivalent dəyərdə ABŞ Dolları və Avro ilə tələb olunur. (Təminat LOT-3 üçün ayrı zərfdə təqdim edilməlidir, LOT-1 və LOT-2 üçün tələb olunmur)*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

*V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.*

*VI. Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.*

*VII. Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.*

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB
**Əlaqələndirici şəxs:** Qasımov Vüqar
Satınalmalar və Təchizat şöbəsi, mühəndis
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 382 (daxili)
korporativ mobil nömrəsi: +99450 841 13 82
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: Vugar.Qasimov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 30.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azneft" İstehsalat Birliyi

**idarələrinin tələbatına əsasən yastıqlara açıq satınalma müsabiqəsi (11121AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 30.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 06.08.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər LOT 1 üzrə 118 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120 AZN,
AZ28IBAZ38110018409306332120 USD,
AZ08IBAZ38110019789306332120 EUR,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

* Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***
* LOT-1 üzrə İddiaçının müsabiqə təklifinin təminatı tələb olunmur
* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.
* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.
* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.
* Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1000, Bakı şəhəri, Səbail rayonu Neftçilər prospekti, 73
**Əlaqələndirici şəxs:** Orucov Mirismayıl
Satınalmalar və təchizat şöbəsi, ekspert
+99450 841 12 62
+99412 521 12 62
+99412 521 11 72
Mirismayil.orucov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 06.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azneft" İstehsalat Birliyi

**Avtomatika avadanlıqlarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11129AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 25.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 01.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin emtək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

Intermediary Bank:Deutsche Bank Trust
Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

Intermediary Bank:Commerzbank AG,
Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsini 90 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***
Tələb olunmur

***VI. Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ 1000, Bakı şəhəri, Səbail rayonu, Neftçilər pr-ti 73, "Azneft" İstehsalat Birliyinin inzibati binası
**Əlaqələndirici şəxs:** Sadıqov Samir
Satınalma və təchizat şöbəsinin böyük eksperti
Telefon nömrəsi: +99 412 521-00- 00 (11-386)
Elektron ünvan: samir.sadiqov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 01.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:30-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İB-nin Satınalmalar qrupu**

# “AzerTelecom”un rəhbəri İsveçrədə



Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti “AzerTelecom” şirkətinin baş icraçı direktoru Fuad Allahverdiyev İsveçrənin Sürix şəhərində keçirilmiş İsveçrə-Azərbaycan Biznes Forumunda “Azərbaycanda rəqəmsallaşma prosesləri və “Azerbaijan Digital HUB” proqramının bu proseslərə töhfəsi” mövzusunda çıxış edib.

Fuad Allahverdiyev çıxışında dördüncü sənaye inqilabı şəraitində rəqəmsallaşma proseslərinin Azərbaycanda da sürətlə getdiyini, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən İKT sektorunun dayanıqlı inkişafı istiqamətində müxtəlif Dövlət proqramları, Sərəncam və fərmanların qəbul edildiyini bildirib.

O, “AzerTelecom” şirkətinin hazırda icra etdiyi “Azerbaijan Digital HUB” proqramı barədə məlumat verərək bu proqramın ölkənin İKT, telekommunikasiya sektorunun inkişafı, rəqəmsallaşma proseslərinə mühüm töhfə verəcəyini bildirib. “Digital HUB” proqramı ölkə daxilində dayanıqlı infrastruktur quruculuğunu, Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin (Rəqəmsal İpək Yolu) yaradılmasını, Transxəzər magistralının çəkilişini, ölkəmizdə regional Data Mərkəzin tikintisini və Azərbaycanın Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün Regional Rəqəmsal Mərkəzə çevrilməsini və rəqəmsal ekosistemin formalaşmasını nəzərdə tutur”, - deyə Fuad Allahverdiyev bildirib.

Qeyd olunub ki, “Digital HUB” proqramı Avropa və Asiya ölkələri arasında əməkdaşlıq əlaqələrinin qurulmasına xidmət edəcək, iki qitənin müxtəlif dövlətlərinin telekommunikasiya və kontent operatorlarının əməkdaşlığı, biznes əlaqələrinin daha da genişlənməsi üçün təməl olacaq. Azərbaycan bu proseslərdə mərkəzi ölkəyə çevriləcək və proqram çərçivəsində rəqəmsal telekommunikasiya dəhlizinin qurulması bir çox ölkələrdə rəqəmsallaşma proseslərinin sürətlənməsinə töhfə verəcək.

İsveçrə-Azərbaycan Biznes Forumu İsveçrə Konfederasiyasının Sürix şəhərində İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasındakı səfirliyinin və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə iyunun 27-də keçirilib.

“AzerTelecom” Azərbaycanın, ümumilikdə isə Cənubi Qafqaz regionunun ən iri telekommunikasiya operatorlarından biridir və ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan “Bakcell” şirkətinin törəmə müəssisəsidir. “AzerTelecom” 2008-ci ildə təsis edilib və telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir.

# Sağlamlığımızın düşməni: qazlı içkilər



**Yay mövsümünün gəlişi ilə qazlı içkilərə olan tələbat daha da artıb. Xüsusilə də azyaşlıların sevərək içdiyi bu içkilər insan orqanizminə zərərli təsirlər edir.**

Əvvəla onu qeyd edək ki, qazlı suyu içdikdən 1 saat sonra orqanizmdə bir sıra proseslər gedir. Belə ki, ilk 10 dəqiqə - 250 ml-lik həcmində qazlı su orqanizmə 10 çay qaşığı şəkər əvəzində daxil olur. Bu miqdar isə insanın gündəlik dozasıdır, onu da hissə-hissə qəbul etməlidir. 10 qaşıq şəkər qatılmış suyu insan adi halda içsə, ürəkbulanma baş verər. Amma qazlı içkilərdə belə hal baş vermir, çünki əlavə olunan forfor turşusu şirniyyatın mənimsənilməsini yüngülləşdirir, o təzyiqi hiss etdirmir. 20 dəqiqə keçdikdə isə qanda şəkər, qlükoza kəskin qalxır, mədəaltı vəz qana insulin buraxır. Qaraciyər bu qədər şəkərlə nə edəcəyini bilmir, onu piyə, yağa çevirib, özündə saxlayır. 40 dəqiqə sonra - kofein həll olur, bəbəklər genişlənir, təzyiq qalxır, qaraciyər bu dəfə qana şəkər atır. Beyin reseptorları qıcıqlanır, sakitləşdirici və yuxu gətirici reseptorlar bloklanır. 1 saatın tamamında isə suda olan həmin fosfor turşusu kalsium, maqniy, sinklə bağırsaqda birləşib metobolizmi sürətləndirir, nəticədə sidiklə kalsium yuyulub gedir, bu da sümüklərin zəifləməsi deməkdir. Yəni bu şirələr sümükləri yuyur. Orqanizmdə sidiklə lazımlı mikroelementlər çıxdığı üçün, beyində həzzverici hormon da azaldığı üçün, kofein və şəkər təsirini itirir, sidiyə getmələr çoxalır, bu da orqanizmin maye-duz balansını pozur, insan əsəbi, oyanıq və əzgin olur, beyin tormozlanır. Bu içkilər uşaq və böyüklərdə ürək-damar, mədəaltı vəz, beyin, qaraciyər, böyrəklər, sinirlər, bağırsaq, sümükləri sıradan çıxarır. İnsanda depressiya, əsəb və gərginlik yaradır.

Orta yaş qrupuna daxil olan insanlar gün ərzində mütəmadi olaraq şəkərli içki qəbul etdikdə orqanizmdə mövcud olan yağların həm keyfiyyəti, həm də miqdarı kəskin şəkildə dəyişir. Ümumiyyətlə, şəkərli içki qəbul edənlərlə şəkərli içki qəbul etməyənləri müqayisə etdikdə, bu qrup insanlarda daxili piylənmənin yüksək olduğu ortaya çıxıb. Bundan başqa, qazlı şəkərli içki istehlakı yüksək olan insanların mütəmadi olaraq idmanla məşğul olmalarına baxmayaraq, bu qrup insanlarda eyni zamanda, yağların ərimə sürətində də ciddi yavaşlama müşahidə edilir. Sadə dildə desək, yüksək miqdarda şəkərli içki qəbulu, daxili piylənməni artırmaqla yanaşı, piylənməyə səbəb olan yağların orqanizmə birdəfəlik yerləşməsinə səbəb olur. Məlumdur ki, şəkərli içkilərin tərkibində kalori və şəkər çoxdur. Qida dəyər göstəriciləri baxımından isə şəkərli içkilər olduqca zəifdir. Elə bu səbəbdən şəkərli içki qəbul etdikdə toxluq hissi yaranmadığı üçün gün ərzində qəbul etdiyiniz yeməklər artıq çəkiyə və həddindən artıq piylənməyə səbəb olur. Adətən, qazlı içkilərin üzərində olan “Soyuq halda için” yazısı da əbəs yerə yazılmır. Bunun əsas səbəblərindən biri qazlı və şəkərli içkiləri temperaturu yüksək olan şəraitdə saxladıqda, tərkibində mövcud olan Aspartam əlavəsinin asanlıqla metanola çevrilməsidir. Metanol isə kanserogen təsiri ilə seçilən formaldehidə çevrilə bilir. Aspartam şəkərli və qazlı içkilərlə orqanizmə daxil olduqda bədənimiz bu “təbii dadlandırıcı”nı normal şəkər kimi qəbul etmir və şəkərin parçalanması üçün ifraz olunan insulin yaranmadığı üçün, orqanizmə faydası olmayan bakteriyaların qidalanmasına əlverişli şərait yaratmış olur.

Bütün bunları nəzərə alaraq qeyd etməliyik ki, qazlı və şirin içkiləri birmənalı şəkildə qida rasionumuzdan çıxarmalıyıq. Azyaşlı uşaqlar və sağlamlığında ciddi problemi olan şəxslər üçün bu qaydalara xüsusilə diqqət yetirilməlidir.

**Yaqut Ağaşahqızı,**
***“İki sahil”***

# Dünyanın ən böyük kiber hücumları



Müasir dövrün əsas təhlükələrindən biri də məhz kiber hücumdur. Kiber məkanda təhlükə yeni bir hadisə deyildir. Müasir kiber məkan milli təhlükəsizlik baxımından müdafiə sisteminin yaradılması zərurətini doğurur. Çünki bir çox vacib sahələrin idarə olunması və istifadəsində kompyuter, internet texnologiyasından geniş istifadə olunur və bu, hər an həmin sistemlərin kiber hücumlar nəticəsində sıradan çıxmasına gətirib çıxara bilir. Xakerlər (ilk dövrlərdə xaker daha çox proqramlaşdırmanı yüksək dərəcədə aparan bir şəxs kimi başa düşülürdü. Lakin illər keçdikcə xaker sözü daha çox kompüter haqqında geniş bilikləri qeyri-qanuni və zərərverici fəaliyyətə sərf edən cinayətkar kimi başa düşülməyə başlanıldı) vacib dövlət sistemlərini, eyni zamanda, hərbi sistemləri də iflic etmək iqtidarındadırlar. Müasir mədəniyyətdə xakerlər bir növ qəhrəmanlar kimi qələmə verilirlər. Onlar yeni nəsil cihazlara sahibdirlər və sistemə qarşı mübarizə aparırlar. İş əsnasında isə bir çox xaker hücumları adi istifadəçilərə zərər yetirməkdən başqa bir şey deyil. Həmin hücumlardan hansılarını daha irimiqyaslı hesab etmək olar?

Baxmayaraq ki, xakerlər çox vaxt bu hücumları sadəcə əyləncə üçün edirlər, onların əsas məqsədi külli miqdarda insanın kredit kartlarının şifrələrini oğurlamaqdır. Hər il bu cür hücumlara qarşı müxtəlif qorunma sistemləri yaradılır. Lakin buna baxmayaraq xakerlər həmin sistemləri də sındırmağı bacarırlar.

Jonathan James dahi xaker kimi məşhurlaşmışdır. Belə ki, o 15 yaşında (1999-cu il) NASA-nın serverini sındıraraq BKS-in (Beynəlxalq Kosmik Stansiya) vacib sistemlərindən birini ələ keçirmişdi. Bu hadisə böyük panikaya səbəb olaraq rəqəmsal qorunmanın tamamilə dəyişdirilməsinə gətirib çıxartdı. Kiçik yaşda olduğu üçün həbsxanadan canını qurtaran Jonathan James 24 yaşında bilinməyən səbəblərdən vəfat etdi.

2013-cü ildə Adobe Systems şirkətinə edilmiş kiber hücum ən məşhurlardan sayılır. Həmin hücum zamanı 150 milyon insanın personal məlumatları və 3 milyon kredit kartının şifrələri oğurlanmışdır.

2014-cü ildə baş vermiş kiber hücum Mt.Gox saytından külli miqdarda Bitcoin-in oğurlanmasına gətirib çıxartdı. Xakerlər 400 istifadəçinin məlumatlarını oğurlamışdılar. Nəticədə 470 milyon dollar dəyərində Bitcoin oğurlandı. Bu hadisə saytın bağlanmasına və virtual valyutanın qiymətinin enməsinə gətirib çıxartdı.

2015-ci ilin iyun ayında ABŞ-ın şəxsi menecment ofisinə Çin xakerləri tərəfindən kiber hücum təşkil olunmuşdu. Nəticədə 20 milyona yaxın şəxslərin məlumatları və sosial sığortalarının nömrələri oğurlandı.

2007-ci ildə Estoniya insanlıq tarixində ən böyük kiber hücumlardan biri ilə qarşılaşdı. Hökumətin, prezidentin, baş nazirin, KİV saytları iki həftə müddətinə işlənməz hala gəldi. Bank sistemi isə dayanmış halda idi. İnsanlar adi pul köçürmələrini belə reallaşdıra bilmirdilər.

2015-ci ilin fevral ayında Anthem tibbi sığorta şirkətinə edilmiş kiber hücum nəticəsində 88 milyon müştərinin məlumatları oğurlandı. Ehtimal olunurdu ki, həmin hücum Çin xakerləri tərəfindən edilib. Oğurlanmış məlumatların içində hətta müştərilərin sosial sığorta nömrələri də var idi.

Stuxnet casusluq və müxtəlif müəssisələr üçün təxribatların hazırlanmasında istifadə olunan ən məşhur kompyuter virusudur. Güman olunur ki, bu virus İranın nüvə proqramına qarşı ABŞ və İzrail tərəfindən hazırlanıb.

İndiyə kimi hərbi kompyuterlərə edilmiş ən böyük kiber hücum ilə təqsirli bilinmiş şotlandiyalı xaker Gary McKinnon ABŞ-ın hərbi təşkilatlarına hücum edərək 2000 kompyuteri sıradan çıxarmış və bir çox məlumatları oğurlamışdır. Xakerin sözlərinə görə isə o, UFO və antiqravitasiyanın yaradılması haqqında məlumatları tapmaq üçün bu hücumu etmişdir.

17-19 aprel 2011-ci il tarixlərində LulzSec adlı xaker qruplaşması PlayStation Network internet servisinə hücum edərək 77 milyon istifadəçinin məlumatlarını və 10.000-ə yaxın kredit kartın nömrələrini oğurlamışdı. İstintaq ilə əlaqədar olaraq PlayStation öz servisini 1 aylıq bağlamaq məcburiyyətində qalmışdı.

2014-cü ildə Çin xakerləri ABŞ-ın hərbi bazalarını sındıraraq yeni silah növlərinin 20-yə yaxın çertyojlarını oğurlamışdılar.

**Sevinc Azadi,**
***“İki sahil”***



# Paşinyan acı həqiqətlərlə üz-üzə

**Sevinc Azadi**

Ermənistan iqtisadiyyatındakı böhran və anarxiya ölkə vətəndaşlarını müddətsiz etiraz aksiyalarına başlamağa vadar edir. İşsizlik, qiymət artımı yoxsullaşan xalqı daha tez-tez meydanlara, küçələrə çıxarır. İnsanlar dərhal sosial-iqtisadi vəziyyətlərinin düzəldilməsini tələb edirlər. Amma belə hal baş nazir Nikol Paşinyanı deyəsən yalnız sevindirir. Onun fikrincə, etirazlar, yürüşlər, marşlar demokratiyanın Ermənistanda qalib gəldiyini göstərir. Bəli, bu gün sən acsan, işsizsən, amma tamamilə azadsan. Paşinyan komandasının işsizliyin azaldılması üzrə "proqramı" da artıq gülüşlə qarşılanır. Bildirilir ki, Ermənistanda işsizlərin sayının azalması barədə deyilənlər hamısı yalandır.

Bunu sübut edən bir fakti xatırladaq. Bu günlərdə Ermənistanın baş naziri Nikol Paşinyan Lori əyalətinin sakinləri ilə görüşündə belə bir fikir səsləndirib: "Mən bu gün sevinclə sizə bildirmək istəyirəm ki, yüzdən artıq yeni işçinin də qatıldığı Loridəki Tehut mis-molibden yatağında işlər yenidən başlayıb. Belə düşünürəm ki, orada hər şey öz qaydası ilə davam edəcək". Paşinyanın bu bəyanatından bir neçə saat sonra Lori əyalətinin Tehut, Şnox, Karkop kəndinin sakinləri Tehut-Şnox yolu arasındakı körpünü bağlayaraq, erməni baş nazirin dedikləri yalanlara rəğmən, ondan iş tələb ediblər. Yalan vədləri ilə xalqı daima aldadan Paşinyanın dediklərinə münasibət bildirən Tehut kənd sakini deyib: "Paşinyanın işlə təmin olunan hansı 100 nəfərdən danışdığını biz başa düşmürük. Əgər doğrudan da 100 nəfər işlə təmin olunubsa, belə olan halda, bizim etiraz etməyimizə nə ehtiyac vardı".

Baş verənlərə münasibət bildirən Tehut kəndinin icra nümayəndəsi kəndin etiraz edən sakinləri ilə görüşdüyünü və onlardan körpünün açılması üçün çağırış etdiyini bildirib. Erməni icra nümayəndəsi, əslində, bunun məsələnin həll variantı olmadığını da etiraf etmək məcburiyyətində qalıb: "Yerli sakinlər işləmək istəyirlər. Doğrudur, mən onları müəyyən müddət üçün sakitləşdirib körpünün açılmasına nail olsam da, lakin bunun yaxın vaxtlarda təkrar oluna biləcəyinə heç bir təminat verə bilmərəm. Çünki ehtiyac içində yaşayan xalqı yalan vədlərlə artıq aldatmaq mümkün deyil". Qeyd edilməlidir ki, tehutlu həmkarının fikirləri ilə razılaşan Şnox kəndinin icra nümayəndəsi də baş nazirin yalanlarını kompensasiya etmək üçün bu sahəyə səlahiyytli şəxslərdən Tehut mis-molibden yatağında əlavə iş yerləri açılması üçün müraciət etdiklərini bildirib.

Xatırladaq ki, Tehut mis-molibden yatağı 2018-ci ilin yanvarında kredit öhdəlikləri ilə bağlı problemlər üzündən rəsmi olaraq bağlanıb. Bundan bir müddət sonra yatağın əmanətinin idarə edilməsi Rusiyanın VTB bankına verilib. Təbii ki, kredit öhdəlikləri əvəzinə. Yatağın yenidən açılmasının təşəbbüskarlarından biri olan Karen Mikaelyan baş nazirin yeni işçilərin işlə təminatı ilə bağlı məlumatı hardan götürdüyünü anlamasa da hələlik sahədə tərəddüdlə tədqiqat apardıqlarını, bu işin hansı effekt verə biləcəyini müzakirə etdiklərini bildirib.

O da qeyd edilməlidir ki, erməni ekoloq Levon Qalstyan Tehut mis-molibden yatağının yenidən fəaliyyətə başlamasını qəbulledilməz sayır. Onun fikrincə, yataq yaranmış çöküntülər üzündən hər an dağıla bilər: "Ona görə də mis-molibden yatağının yenidən istismara verilməsi qəbuledilməzdir".

# Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması nələr vəd edir?

***"Bu gün ölkəmizdə həyata keçirilən regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının əsas məqsədlərindən biri aqrar sektorda yüksək nəticələrə nail olmaqdır. Əgər xatırlayırsınızsa, Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda növbəti illərdə də aqrar sektorun inkişafına xüsusi önəm veriləcəyini bildirərək demişdir: "Biz kənd təsərrüfatında islahatları dərinləşdirməliyik. Kənd təsərrüfatı elmi əsaslarla inkişaf etməlidir. Müasir texnologiyalar, yanaşmalar tətbiq olunmalıdır". Bu mənada Prezident İlham Əliyevin iyunun 27-də imzaladığı "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Fərman xüsusi əhəmiyyət kəsb edir". Bu sözləri ekspert Nicat Nəsirli sözügedən Fərmanla bağlı fikirlərini "İki sahil" qəzeti ilə bölüşərkən söylədi.***

Bildirdi ki, həmin Fərman əsasında hazırlanmış qaydaya əsasən, subsidiyaların verilməsi fermerlərin subsidiyalara əlçatanlığını daha da yaxşılaşdıracaq, zaman itkisinin qarşısını alacaq: "Əvvəlki qaydalarda fermerlər il ərzində subsidiyaların alınması ilə bağlı yerli və mərkəzi icra hakimiyyəti orqanlarına müraciət edirdilər. Yeni qaydaya əsasən, fermerlər mobil telefonlar, planşetlər və masaüstü kompyuterlər vasitəsilə şəffaf və səmərəli idarəetməni və innovasiyanın tətbiqini özündə ehtiva edən vahid bir sistemdə - Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) yaratdıqları şəxsi kabinetlərinə daxil olacaq və heç bir idarəyə getmədən subsidiya almaq üçün müraciət edə biləcəklər. Bu sistemdə qeydiyyatdan keçməyən fermerlər isə subsidiya ala bilməyəcəklər. Yeri gəlmişkən, hazırda ölkədə fermerlərin EKTİS-də qeydiyyatı prosesi davam edir. İndiyədək 300 mindən çox fermer öz aqrar fəaliyyətlərinə dair məlumatları bu bazaya daxil edib. Bu ilin sonunadək fermerlərin EKTİS-də qeydiyyatı prosesi tam yekunlaşdırılacaq".

Subsidiyaların 2020-ci il yanvarın 1-dən verilməsinin nəzərdə tutulduğunu vurğulayan müsahibimiz, həmçinin qeyd etdi ki, subsidiyalar bir qədər fərqli mexanizmlə hesablanacaq: "Belə ki, fermerlərə sərf olunan xərclərin bir hissəsini kompensasiya etmək üçün bitki becərilən sahənin hər hektarına görə əkin subsidiyası və bitkiçilik məhsulunun hər tonuna görə məhsul subsidiyası veriləcək.

Onu da qeyd edək ki, fermerlərə indiyədək yanacaq və motor yağlarına, eləcə də gübrələrə, sertifikatlı toxuma, tingə, pestisidlərə görə ödənilən birbaşa və dolayı subsidiyaların birləşdirilərək əkin subsidiyası formasında verilməsi nəzərdə tutulur.



Hektar başına əkin subsidiyası regionlar və bitki növləri üzrə fərqli məbləğlərdə müəyyən ediləcək. Subsidiyaların verilməsi ilə bağlı monitorinq və qiymətləndirmələr aparılacaq və sui-istifadə halları aradan qaldırılacaq. Gələcəkdə subsidiyanın məhsuldarlığa uyğun olaraq artırılması nəzərdə tutulur. Heyvandarlıq sahəsində isə subsidiyalar əvvəlki məbləğ və qaydada tətbiq olunacaq. Sadəcə, fermerlər EKTİS-də qeydiyyatda olmalı və subsidiya almaq üçün sistem vasitəsilə müraciət etməlidirlər".

N.Nəsirlinin sözlərinə görə, yeni qaydalar kənd təsərrüfatı kooperativlərinin fəaliyyətini stimullaşdırmağa imkan verəcək: "Belə ki, Fərmana əsasən, 50 hektardan yuxarı sahəsi olan kənd təsərrüfatı kooperativlərinə verilən əkin subsidiyasının miqdarı 10 faiz artıq olacaq. Şübhəsiz, bu da fermerləri kooperativlər formasında fəaliyyət göstərməyə təşviq edəcək. Fikrimcə, hazırkı şəraitdə aqrar sahənin inkişaf etdirilməsində ən vacib məsələlərdən biri ölkəmizdə kooperasiyanın inkişaf etdirilməsidir. Yeri gəlmişkən, kooperasiyanın inkişafı istiqamətində təbliğat işlərinin qurulması, yerlərdən daxil olan təşəbbüslərə dəstəyin verilməsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyində fermerlər, assosiasiyalar və kooperativlərlə iş şöbəsi də yaradılıb. Subsidiya mexanizminin kənd təsərrüfatının inkişaf məqsədlərinə çevik şəkildə uyğunlaşdırılması məqsədilə isə Aqrar Subsidiya Şurası da yaradılacaq. Müxtəlif qurumlara məxsus 7 nəfərdən ibarət Şuraya ictimai əsaslarla kənd təsərrüfatı naziri rəhbərlik edəcək. Şura subsidiyaların təkmilləşdirilməsi, təsdiq edilən baza məbləği olan 200 manata bitkiçilik sahəsinin subsidiyalaşdırılması üçün tətbiq olunacaq əmsalları, toxumçuluq sahəsi ilə bağlı kvotaları müəyyən edəcək".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# Sabunçunun beş qəsəbəsində içməli su layihələri icra olunur

***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti (ASC) Bakı şəhəri və ətraf qəsəbələrdə əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə layihələrin icrasını davam etdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əhalinin içməli su təchizatının yaxşılaşdırılması barədə tapşırıqlarına uyğun olaraq Sabunçu rayonunun 5 qəsəbəsində içməli su layihələri həyata keçirilir.***

Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin və Ceyranbatan-Zirə magistral su kəmərinin istismara verilməsindən sonra Abşeron yarımadasının kənd və qəsəbələrinin içməli su təchizatında ciddi dəyişiklik müşahidə olunub. Hazırda yaşayış məntəqələrində yeni içməli su şəbəkələrinin tikintisi və genişləndirilməsi işləri davam etdirilir.





Sabunçu rayonunda icra olunan layihələr Maştağa, Zabrat, Pirşağı, Nardaran və Bilgəh qəsəbələrini əhatə etməklə mərhələli şəkildə həyata keçirilir. Ötən müddətdə Pirşağı, Nardaran və Bilgəh qəsəbələrinin içməli su qıtlığının daha çox müşahidə olunduğu ərazilərində yeni mərkəzləşdirilmiş su şəbəkələri yaradılıb. Hazırda Maştağa və Zabrat qəsəbələrində yeni şəbəkələrin tikintisi davam etdirilir.

Bu qəsəbələrdə müxtəlif diametrli borularla 11 km paylayıcı su xətlərinin inşası nəzərdə tutulub. Yeni tikilən şəbəkələrdən evlərə birləşmə verilərək sayğaclar quraşdırılır. Tikinti-quraşdırma işlərinin yaxın vaxtlarda başa çatdırılması nəzərdə tutulur. Yeni su xətləri istismara verildikdən sonra əhali dayanıqlı və keyfiyyətli içməli su ilə təmin olunacaq. İlkin mərhələdən bu layihələrdən 5 minədək sakin faydalanacaq. Növbəti mərhələdə Sabunçu rayonunun içməli sudan əziyyət çəkən digər yaşayış massivlərində də su şəbəkələrinin tikintisi və genişləndirilməsi işləri həyata keçiriləcək.

Qeyd edək ki, layihələrin əhatə etdiyi ərazilərin əksəriyyətində içməli su təchizatı əhali tərəfindən primitiv qaydada çəkilmiş su xətləri hesabına aparılıb. Bəzi ərazilərdə isə ümumiyyətlə, su xətləri olmayıb, əhali içməli suya olan tələbatını quyu suları və maşınla uzaq məsafələrdən daşıyaraq ödəyib.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azneft" İstehsalat Birliyi

**Elektromaqnit intiqallı iki gedişli klapana olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11128AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 25.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 01.08.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin emtək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

Intermediary Bank:Deutsche Bank Trust
Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

Intermediary Bank:Commerzbank AG,
Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsini 90 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

Tələb olunmur

***VI. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ 1000, Bakı şəhəri, Səbail rayonu, Neftçilər pr-ti 73, "Azneft" İstehsalat Birliyinin inzibati binası
**Əlaqələndirici şəxs:** Sadıqov Samir
Satınalma və təchizat şöbəsinin böyük eksperti
Telefon nömrəsi: +99 412 521-00- 00 (11-386)
Elektron ünvan: samir.sadiqov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 01.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İB-nin Satınalmalar qrupu**

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azneft" İstehsalat Birliyi

**ağırlaşdırılmış qazma borularına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11101AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);

* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);

* Müsabiqə təklifinin təminatı (forma əsas şərtlər toplusunda veriləcəkdir) ;

* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 30.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 06.08.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri müvafiq etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə birlikdə qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin emtək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər istəyənlər 236 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
* Hesab nömrəsi: USD
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD
* Hesab nömrəsi: EUR
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
* Hesab nömrəsi: GBR
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

* Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin şərtlər toplusunda qeyd olunan 90 gün ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

*I. İddiaçının müsabiqə təklifinin təminatı 2500 AZN və ya ona ekvivalent dəyərdə ABŞ Dolları və Avro ilə tələb olunur. (Təminat ayrıca bağlı zərfdə təqdim olunmalıdır)*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

*V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.*

*VI. Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.*

*VII. Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.*

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB
**Əlaqələndirici şəxs:** Əsgərov Kamil
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 381 (daxili)
korporativ mobil nömrəsi: +99450 841 13 81
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: kamil.asgerov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 06.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanıda baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**Ehtiyat hissələrinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11134AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 25.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 01.08.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 236 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsini 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

*I. İddiaçının müsabiqə üçün 2200 AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutada müsabiqənin təklifi üzrə bank zəmanəti tələb olunur.*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

*V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.*

*Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.*

***VI. Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ 1000, Bakı şəhəri, Səbail rayonu, Neftçilər pr-ti 73, "Azneft" İstehsalat Birliyinin inzibati binası
**Əlaqələndirici şəxs:** Sadıqov Samir
Satınalma və təchizat şöbəsinin böyük eksperti
Telefon nömrəsi: +99 412 521-00- 00 (11-386)
Elektron ünvan: samir.sadiqov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 01.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İB-nin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azəriqaz" İstehsalat Birliyi

**müxtəlif mal-materiallara (9 adda) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29021-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 31.07.2019-cu il, Bakı vaxtı ilə saat: 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 06.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 59 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi (AZN):
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

* Xaricdən valyuta ilə edilən ödənişlər üçün hesab nömrələri:

TAX İD: 9900003871
AZ08IBAZ38110019789306332120 (EURO)
Intermediary bank: Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC: 400 88 660 3001
AZ28IBAZ38110018409306332120 (USD)
Intermediary bank: Deutsche Bank Trust Company Americas, New York
S.W.I.F.T: BKTRUS33
ACC: USD 04-164-504
AZ23IBAZ38110018269306332120 (GBP)

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 30 gün ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23
**Əlaqələndirici şəxs:** Bağırov Süleyman
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994 12 521-00-00 (daxili 29-169)
suleyman.bagirov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***VIII. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 06.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**

# Minskdə qazanılan medallar:
# 5 qızıl, 10 gümüş, 13 bürünc

## *II Avropa Oyunlarında ilk onluqda yer alan milli komandamız idman tariximizə yeni səhifələr yazdı*



**Dünya iqtisadiyyatının ayrılmaz parçası olan, özünəməxsus inkişaf modeli ilə fərqlənən, investisiya cəlbediciliyi ilə diqqət çəkən, enerji layihələrinin gerçəkləşdiyi qüdrətli ölkə kimi tanınan Azərbaycanın beynəlxalq aləmdə sayılıb-seçilən dövlət kimi maraq doğurmasında idman amilinin də böyük rolu vardır. Azərbaycanın idman tarixi isə maraqlı və möhtəşəmdir.**

Müstəqil ölkə kimi ilk dəfə Atlanta yarışlarında (1996) iştirak edən Azərbaycanın qismətinə 1 gümüş medal yazıldı. Sidney (2000) görüşü ölkəmizə 2 qızıl, 1 bürünc medal qazandırdı. Afinadan (2004) Azərbaycana 5 medalla qayıdan idmançılarımız Pekin (2008) yarışlarında 1 qızıl, 2 gümüş, 4 bürünc medalla pərəstişkarlarını sevindirdilər. Azərbaycana uğur gətirməklə idmançılarımızın dünya birliyində tanınmasına səbəb olan London XXX Yay Olimpiadası daha uğurlu oldu: İdmançılarımız qaliblər üçün nəzərdə tutulan medallardan 2 qızıl, 2 gümüş, 4 bürünc qazanmaqla ölkəmizə 10 medalla döndülər.

Çində keçirilmiş yeniyetmələrin Yay Olimpiya Oyunlarında gənclərimiz idman şərəflərinə əlavə aktivlər qazandırdılar. 204 ölkənin iştirak etdiyi yarışlarda Azərbaycan yeniyetmələri komanda hesabında 10-cu yerə layiq görüldülər. Dünyada idman ölkəsi kimi tanınan respublikamızın idmançılarının Rio Yay Olimpiya Oyunlarında 18 medal qazanaraq medalların sayına görə müsəlman ölkələri sırasında birinci yeri qazanması Azərbaycan dövlətinin potensialının, gənclərimizin istedad və bacarığının məntiqi nəticəsidir. İdman tarixinə yeni səhifələr yazan Birinci Avropa Oyunlarına ev sahibliyimiz, qazanılan uğurlarımız isə respublikamızın dünyaya təqdimatı oldu.

Azərbaycanı dünyada idman ölkəsi kimi tanıdan, standartları Bakıda yazılan Birinci Avropa Oyunlarının açılış mərasimlərinin alovla başlaması Odlar Yurdunun simvolu kimi rəmzi məna daşımaqla varlığımızı təsdiqləyən amil kimi də diqqəti cəlb etdi. "Atəşgah" məbədində keçirilən mərasimdə alovlanan, 47 gün ərzində 60 rayonu dolaşan, 5,5 min kilometr məsafə qət edən məşəl ilk Avropa Oyunlarında iştirak edən 49 ölkədən 6000-dən artıq idmançının uğura aparan yolunu işıqlandırdı. 20 növ üzrə mübarizə aparan idmançıların, qonaqların etiraf etdikləri kimi, I Avropa Oyunları Yay Olimpiya Oyunları səviyyəsində təşkil edilmişdi. Azərbaycana 56 medal qazandıran, gənclərimizin idmana maraq və həvəsini artıran Birinci Avropa Oyunları təsdiqlədi ki, ölkəmizdə perspektivli, güclü idmançılar nəsli yetişməkdədir. İdmançılarımız yarışlarda böyük ustalıq göstərərək qazandıqları 21 qızıl, 15 gümüş, 20 bürünc medalla I Avropa Oyunlarında komanda hesabı ilə ikinci sırada yer aldılar. Bu uğur ölkəmizdə idmanın inkişafına göstərilən diqqət və qayğının məntiqi nəticəsi idi.

Birinci Avropa Oyunlarında qalib gəlmiş idmançılarla, onların məşqçiləri, idman ictimaiyyətinin nümayəndələri ilə keçirilən görüşdə çıxış edən Prezident İlham Əliyev millilərimizin qələbələrini xüsusilə qeyd etdi : "Təbii ki, biz bu Oyunları yüksək səviyyədə keçirməli idik və keçirdik. Bu, bir daha ölkəmizin potensialını, gücünü göstərdi. Biz bu potensialı əlbəttə ki, bilirdik. Bu potensialı yaratmışıq... Bu Oyunlar sadəcə olaraq bizə imkan verdi ki, bu potensialı dünyaya, Avropaya, eləcə də öz ictimaiyyətimizə nümayiş etdirək. Həm insani potensial, həm dövlətimizin iqtisadi potensialı, həm cəmiyyətdə hökm sürən xoş əhval-ruhiyyə, xalqla iqtidar arasındakı birlik, milli ideyalar ətrafında birləşməyimiz, milli həmrəylik - məhz budur bizim uğurlarımızın əsas şərtləri."

İlk Avropa Oyunlarının, Dünya Şahmat Olimpiadasının, 17 yaşadək futbolçular arasında Avropa çempionatının, bədii gimnastika üzrə Dünya Kubokunun, Formula 1" kimi beynəlxalq yarışların ölkəmizdə keçirilməsi "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının uğurunu da şərtləndirdi

2015-ci ildə Bakı Olimpiya Stadionunda alovlanan məşəli iki il sonra- IV İslam Həmrəyliyi Oyunlarının rəmzi olan su müqəddəsliyi əvəz etdi. İslam Həmrəyliyi Oyunlarının rəmzi kimi həyat qaynağı olan suyun seçilməsi təsadüfi deyil. "Həmrəylik bizim gücümüzdür" şuarı altında keçirilən İslamiada Oyunlarına start verildiyi andan Xəzərdən götürülən su bütün Azərbaycanı "səyahət etdi." Ölkənin 15-dən çox tarixi şəhərini, 5 gölü, 1 su anbarını, 3 çayı, 1 bulağı, 3 şəlaləni dolaşdı. 3 min kilometrdən çox məsafəni qət etdi. 15 bölgədə təntənə ilə qarşılandı. "Eurovision 2012", I Avropa Oyunlarının yüksək səviyyədə dünyaya təqdim olunmasında böyük əməyi və xidmətləri olan, "Biz köhnə dostlarımızı salamladıq və yenilərini qazandıq" söyləyən Birinci vitse-prezident, tədbirlərin Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi, qollarını və ürəyini Avropaya açan Azərbaycan məsul yarışları, beynəlxalq tədbirləri yüksək səviyyədə təşkil etmək iqtidarında olduğunu IV İslam Həmrəyliyi Oyunlarının möhtəşəmliyində də göstərdi. Ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunan zamanda keçirilən bu Oyunlar İslam aləminin ayrılmaz parçası olan Azərbaycanın dünya birliyində möhkəmlənən uğurlarına yeni qələbələr qazandırdı. Həmrəylik Oyunlarında 57 müsəlman ölkəsini təmsil edən idmançılar İslamın sülh, bərabərlik dini olduğunu dostluqları ilə sübut etdilər. Yarışlarda 17 müxtəlif idman obyekti ilə yanaşı, 21 qeyri-yarış məkanından da istifadə olundu. Atletlər 10 gün ərzində 16 yarış məkanında 23 idman növü üzrə mübarizə apardılar. 1600 medalın təqdim edildiyi Həmrəylik Oyunlarını izləyən 50-dən çox ölkənin sayı milyardlarla ölçülən sakinləri respublikamızın həyatını, iqtisadiyyatını , mədəniyyətini, tarixini, adət-ənənələrini əks etdirən videoçarxlar vasitəsilə ölkəmizlə tanış olmaq imkanı da qazandılar. Təmsil olunan ölkələrin və iştirakçıların sayına görə əvvəlki yarışlardan fərqlənən IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edən Azərbaycan təkcə müsəlman ölkələri ilə deyil, qitə dövlətləri ilə müqayisə olunmayacaq dərəcədə inkişaf etdiyini göstərdi. Prezident İlham Əliyevin idmana, gənclərin fiziki tərbiyəsinə göstərdiyi diqqət və qayğının nəticəsi olan, IV İslam Həmrəyliyi Oyunlarında qazanılan 75 qızıl, 50 gümüş, 37 bürünc medal çəkilən zəhmətin, fədakarlığın bəhrəsi kimi hamını heyran etdi.

Azərbaycanın idmana göstərdiyi diqqətin daha bir nümunəsi ötən ayda UEFA Avropa liqasının "Arsenal"-"Çelsi" komandaları arasında keçirilən final oyununa ev sahibliyi etməsi oldu. Azərbaycan növbəti dəfə futbol azarkeşlərinin toplandığı məkan kimi tanındı. 2020-ci ildə futbol üzrə Avropa çempionatının matçlarının paytaxtımızda keçirilməsi ilə bağlı qərarın qəbulu göstərir ki, iqtisadi imkanları artan Azərbaycan idman sahəsində də missiyasını ona göstərilən etimadı doğrultmaqla yerinə yetirəcək.

Minskdə keçirilən II Avropa Oyunlarına da ciddi hazırlaşan, 82 idmançı ilə təmsil olunan Azərbaycan millisi məsuliyyətli yarışlarda ölkəmizi layiqincə təmsil etdi. Azərbaycan idmançıları 28 medal qazanaraq yarışlarda iştirak edən 50 ölkə arasında ilk onluqda yer alaraq respublikamızın idman ölkəsi olduğunu uğurları ilə təsdiqlədilər. Millilərimiz oyunları 5 qızıl, 10 gümüş, 13 bürünc medalla başa vuraraq Vətənə qələbələrlə qayıtdılar. Ümumilikdə II Avropa Oyunlarında 200 dəst medala 43 ölkə təmsilçisi yiyələnib. Onlardan cəmi 34-ü qızıl medal sevinci yaşayıb. "Qızıl"larının sayına görə "əlaçı" olan, bayrağımızı beş dəfə yüksək pilləyə qaldıran idmançılarımızın qələbələri inam yaradır ki, azərbaycanlı gənclər gələcək yarışlarda aktivlərini zənginləşdirməklə pərəstişkarlarını daha çox sevindirəcəklər.

✍ **Xuraman İsmayılqızı,**
***"İki sahil"***

## Silahlı Qüvvələrə Yardım Fonduna 101 milyon manatdan çox vəsait daxil olub



Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il iyulun 1-dək 100 milyon 742 min 334,19 manat, 213 min 577,88 ABŞ dolları, 16 min 936 avro və 5000 rubl vəsait yığılıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

## Səyyar "ASAN xidmət" davam edir




Səyyar "ASAN xidmət" iyunun 7-dən iyulun 6-dək Goranboy və Qaxda vətəndaşlara səyyar formada xidmət göstərir. Vətəndaşlar, həmçinin iyulun 1-dən 15-dək Novxanıda, iyulun 1-dən 30-dək Salyan, Gədəbəy, Qusar, Lerik, Şamaxı, Lənkəran və Biləsuvarda Səyyar "ASAN xidmət"in xidmətlərindən yararlana biləcəklər.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, səyyar şəkildə göstərilən xidmətlər Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi və "Azəriqaz" İstehsalat Birliyi tərəfindən təqdim olunur.

Bu xidmətlərə notariat fəaliyyəti, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, şəxsiyyət vəsiqələrinin, ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, əmək pensiyalarının təyin edilməsi, mənzillər üzərində mülkiyyət hüquqlarının ilkin və təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi daxildir.

Vətəndaşlara, eyni zamanda, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların və fərdi yaşayış evləri üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi ilə bağlı xidmətlər də göstərilir. Bununla yanaşı, vətəndaşlar "Azəriqaz" İstehsalat Birliyinin xidmətlərindən də yararlana biləcəklər.

Səyyar "ASAN xidmət"in həyata keçirilməsinin əsas məqsədləri dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmini və vətəndaş məmnunluğuna nail olunmasıdır.

## Atəşkəs ara-sıra açılan atəşlə pozulub



Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

### İyulda 42 dərəcə isti olacaq

## AYLIQ PROQNOZ



İyul ayı ərzində ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Trend-ə verilən məlumata görə, iyul ayında havanın orta aylıq temperaturunun iqlim normasına yaxın olacağı gözlənilir. Aylıq yağıntının miqdarının əsasən iqlim normasına yaxın, bəzi ərazilərdə isə bir qədər çox olacağı ehtimal olunur. Ayın ilk günlərində havanın qeyri-sabit, nisbətən sərin keçəcəyi gözlənilir. Abşeron yarımadasında şimal-qərb küləyi tez-tez güclənəcək.

Bakıda və Abşeron yarımadasında orta aylıq temperaturun 25-27 dərəcə isti (gecələr 21-26, gündüzlər 29-34, bəzi günlərdə 37-41 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı (norma 2-3 mm) gözlənilir.

Naxçıvan Muxtar Respublikasında orta aylıq temperaturun 25-28 dərəcə isti (gecələr 20-25, gündüzlər 30-35, bəzi günlərdə 38-42 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı (norma 6-16 mm) proqnozlaşdırılır.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən və Gədəbəy rayonlarında orta aylıq temperaturun 18-22 dərəcə isti (gecələr 16-21, gündüzlər 22-27, bəzi günlərdə 29-33 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı, bəzi yerlərdə isə bir qədər çox olacağı (36-73 mm) gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında orta aylıq temperaturun 25-27 dərəcə isti (gecələr 20-25, gündüzlər 28-33, bəzi günlərdə 36-39 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı, bəzi yerlərdə isə bir qədər çox olacağı (10-32 mm) proqnozlaşdırılır.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Xızı, Siyəzən, Şabran, Quba, Qusar, Xaçmaz rayonlarında da orta aylıq temperaturun 22-25 dərəcə isti (gecələr 18-23, gündüzlər 27-32, bəzi günlərdə 36-36 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim norması daxilindədir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı olacağı (norma 9-118 mm) gözlənilir.

Mərkəzi-Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında orta aylıq temperaturun 26-28 dərəcə isti (gecələr 21-26, gündüzlər 32-37, bəzi günlərdə 40-42 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim norması daxilindədir.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı (norma 3-22 mm) gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında orta aylıq temperaturun 20-25 dərəcə isti (gecələr 20-25, gündüzlər 30-34, bəzi günlərdə 36-38 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı (norma 7-33 mm) gözlənilir.

# İki yüz ildən artıq dünyaya yalan yayan erməni təbliğat maşını sındırıldı

XVIII əsrin sonlarında ölkəmizdə xanlıqlar arasında daxili didişmələr nəticəsində mərkəzi hakimiyyət tədricən zəifləyib gücdən düşməyə başlayanda İran şahlığı və çar Rusiyası Azərbaycan torpaqlarını ələ keçirməyə başladılar. İki dövlətin uzun müddət apardığı müharibələr Azərbaycan torpaqlarının ikiyə bölünməsi ilə qurtardı. Çar Rusiyası himayəsində saxladığı ermeniləri Azərbaycanın qərb bölgələrində yerləşdirməyi, onlar üçün bir dövlət qurumu yaratmağı və bununla da işğalı həmişəlik etməyi planlaşdırdı. Bizim müsibətlərimiz də ermənilərin ərazilərimizə köçürülməsindən sonra başlandı.

Bir məsələni qeyd etmək vacibdir ki, həm Rusiya, həm də İran rəhbərlikləri törətdikləri cinayətləri son dərəcə məxfi saxlamaq üçün sərhədləri bağlayaraq xarici aləmdən bütün əlaqələrimizi kəsiblər. Bu informasiya blokadası iki yüz ilə yaxın müddətdə davam edib. Müqayisə üçün deməliyik ki, Arazın o tayında qalan doğmaların bu tayında qalan əzizləri ilə hətta görüşməyi belə qadağan edildi. Bu ayrılıq iki yüz ilə qədər -1991-ci ilə qədər davam etdi.

### Süni "erməni vilayəti"ni dövlətə necə çevirdilər?

Dediyimiz kimi, iki yüz il əvvəl regionda gedən mürəkkəb hərbi-siyasi proseslər nəticəsində azərbaycanlılar öz əzəli yurdlarından zorla köçürülməyə, etnik təmizləmə və deportasiyaya məruz qaldılar. Ermənilər rus çarlarının köməyi ilə öz məkrli planlarını mərhələ-mərhələ həyata keçirdilər. Əvvəlcə onlar Azərbaycan torpaqlarında, yəni keçmiş İrəvan xanlığı (sonradan İrəvan quberniyası) ərazisində kiçik bir "erməni vilayəti" (9,7 min kvadratkilometr) yaradaraq və sonralar tədricən onun ərazisini böyüdərək bolşevik hakimiyyətinin fəal müdaxiləsi ilə 29,8 min kvadratkilometrə çatdırdılar.

İran və Rusiya arasında Gülüstan (1813), Türkmənçay (1828), Rusiya və Türkiyə arasında Andrianopol müqavilələri imzalandıqdan sonra ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Çar hökuməti Türkiyədən, İrandan, Suriyadan, Livandan erməni ailələrinin təhlükəsiz köçürülməsinə hər cür şərait yaratdı. Bunun əvəzində torpaqları zəbt olunmuş azərbaycanlılar yüz illərlə yaşadıqları ata-baba yurdlarından zorla qovularaq süni şəkildə qaçqın və məcburi köçkün vəziyyətinə salındılar. Köçəköçdə doğma ev-eşiyindən məhrum edilən azərbaycanlıların bir qismi isti iqlim şəraitinə dözməyərək vəfat etdilər və ya xəstəliklərə düçar oldular.1905-1907-ci və 1918-1920-ci illərdə baş vermiş hadisələr zamanı minlərlə azərbaycanlı kütləvi surətdə qətlə yetirildi, onların yaşadıqları kəndlər talan edildi, dinc əhali qaçqın və didərgin vəziyyətinə salındı.

1918-ci il mayın 28-də müstəqilliyini bəyan edən Azərbaycan yenə də erməni millətçilərinin torpaq iddiaları ilə üz-üzə gəldi. Vaxtilə zorla Rusiyanın tərkibinə Azərbaycan xanlığı kimi daxil edilmiş İrəvan quberniyası ərazisində erməni dövləti yaratmaq ideyası ortaya atıldı.



Həmin dövrdə Azərbaycan siyasətçiləri tarixi şəraitə uyğun olaraq bir sıra güzəştlərə getməyə məcbur oldular. Ermənipərəst qüvvələrin yürütdükləri məkrli siyasət nəticəsində Azərbaycan torpaqlarında paytaxtı İrəvan şəhəri olan erməni dövləti yaradıldı. İrəvan şəhəri azərbaycanlıların əlindən güclü təzyiqlə alınaraq ermənilərə "hədiyyə" edildi. Qeyd etməliyik ki, o zaman ictimai-siyasi və hərbi vəziyyəti son dərəcə ağır olan Azərbaycan birləşmiş erməni-bolşevik hakimiyyətinə müqavimət göstərmək iqtidarında deyildi.

1923-cü ildə Moskvanın köməyi ilə az sayda ermənilərin yaşadığı Azərbaycan ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Bundan sonra azərbaycanlıların öz doğma ocaqlarından yenə zorla qovulması və onlara qarşı etnik təmizləmə siyasətinin yeni mərhələsi başlandı. Yaddan çıxarmayaq ki, bu işlərdə Moskvada yüksək vəzifə tutan erməni millətçilərinin, o cümlədən Anastas Mikoyanın böyük "xidmətləri" oldu.

Keçmiş SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı əsasında 300 minə yaxın azərbaycanlı öz əzəli torpaqlarını məcburən tərk etməli oldu.

Tarixi saxtalaşdırmaq, təhrif etmək və Azərbaycan torpaqlarının tarixi adlarını dəyişdirərək Ermənistanı monoetnik dövlətə çevirmək ermənilərin işğalçılıq siyasətinin tərkib hissəsi olub. Məhz bu üsulla 1935-1989-cu illərdə Ermənistanda minlərlə Azərbaycan toponimi xəritələrdən silindi, yerinə erməni adları yazıldı.

### Yenidənqurmada gizlədilmiş erməni planları

1985-ci ildə Mixail Qorbaçov Sovet İttifaqının rəhbəri seçildikdən sonra onun isti himayəsindən istifadə edən ermənilər başda SSRİ prezidentinin köməkçisi David Şahnazaryan, akademik, prezidentin iqtisadi məsələlər üzrə məsləhətçisi Abel Aqanbekyan, qatı erməni millətçiləri Zori Balayan, Silva Kaputikyan, akademik Hamparsum Hamparsumyan və başqaları olmaqla "böyük Ermənistan" yaratmaq iddialarını daha da fəallaşdırdılar. 1988-1992-ci illərdə Ermənistan ərazisindən azərbaycanlılara qarşı son etnik təmizləmə siyasəti misilsiz bir qəddarlıq və vəhşiliklə həyata keçirildi, 250 mindən artıq soydaşımız öz ata-baba yurdlarından qovularaq qaçqına çevrildi.

Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi - 1988-1992-ci illərdə ərazisi 4400 kv.km. olan Dağlıq Qarabağ, eləcə də ona bitişik olan 7 rayonun **(Laçın rayonu:** işğal tarixi - 18 may 1992-ci il, ərazisi - 1875 kv.km., **Kəlbəcər rayonu:** işğal tarixi - 2 aprel 1993-cü il, ərazisi - 1936 kv.km., **Ağdam rayonu:** işğal tarixi - 23 iyul 1993-cü il, ərazisi - 1154 kv.km., **Cəbrayıl rayonu:** işğal tarixi - 23 avqust 1993-cü il, ərazisi - 1050 kv.km., **Füzuli rayonu:** işğal tarixi - 23 avqust 1993-cü il, ərazisi - 1112 kv.km., **Qubadlı rayonu:** işğal tarixi - 31 avqust 1993-cü il, ərazisi - 826 kv.km., **Zəngilan rayonu:** işğal tarixi - 30 oktyabr 1993-cü il, ərazisi - 707 kv.km.) ərazisi vəhşiliklə işğal olundu, bir milyona yaxın soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.

Məhz bu dövrdə XX əsrin ən faciəli hadisələrindən biri törədildi. Xocalı şəhəri erməni silahlı qüvvələri tərəfindən Sovet ordusunun 366-cı motoatıcı alayının fəal iştirakı ilə bir gecədə darmadağın edildi, 613 nəfər dinc əhali vəhşicəsinə, qəddarlıqla qətlə yetirildi, 150 nəfər itkin düşdü. Bu qanlı faciədə 1000 nəfər dinc sakin müxtəlif dərəcədə şikəst oldu, 1275 nəfər qoca, qadın və uşaqlar isə əsir aparılaraq dəhşətli işgəncələrə, görünməmiş təhqirlərə və insanlığa sığmayan zülmə məruz qoyuldular.

Ermənistanın 1988-1992-ci illərdə planlı şəkildə həyata keçirdiyi son etnik təmizləmə siyasəti nəticəsində Azərbaycana pənah gətirmiş 250 min azərbaycanlıdan əlavə 1990-cı ildə Orta Asiyadan didərgin salınmış 50 min nəfərədək Ahıska (məshəti) türkü də Azərbaycanda sığınacaq tapmışdı. Onlar da didərginlik həyatı yaşamağa məhkum edildilər.

Dağlıq Qarabağ və ona bitişik ərazilər də daxil olmaqla, Naxçıvanın işğal olunmuş iki kəndindən biri (Kərki kəndi), Ağdam rayonunun işğal olunmuş 81 kəndindən 80-i, Füzuli rayonunun işğal olunmuş 76 kəndindən 54-ü, Tərtər rayonunun 13 kəndi və Qazax rayonunun işğal olunmuş 12 kəndindən 6-sı hələ də işğal altındadır.

BMT Təhlükəsizlik Şurası münaqişənin tezliklə, sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin qeyd-şərtsiz azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 822, 853, 874, 884 saylı qətnamələr qəbul edib. Lakin Ermənistan bu qərarların heç birinə əməl etmir və bu gün də işğalçılıq siyasətini davam etdirir. Azərbaycanın yüksək templə inkişaf etməsinə və güclü orduya malik olmasına baxmayaraq münaqişənin dinc yolla həll olunmasının tərəfdarıyıq, lakin lazım gəlsə biz öz torpaqlarımızı hərblə azad etmək iqtidarındayıq.

### "İnformasiya müharibəsi"ndən biz qalib çıxdıq

Ermənistana Azərbaycan torpaqları hesabına ərazisini genişləndirmək üçün "münbit" şərait yaradan Sovet dövlətinin rəhbərliyi öz cinayətlərini başəriyyətdən gizli saxlamaq üçün respublikamızı informasiya blokadasında saxlamağa ciddi cəhd göstərirdi. Ancaq 1991-ci il oktyabrın 18-də Azərbaycan öz müstəqilliyini bərpa etdi və bundan sonra Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri xaricdə müəyyən miqyasda yayılmağa başladı.

Ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələndən sonra bizim haqlı olduğumuzu qısa müddətdə bütün dünyaya sübut etdi. Azərbaycan Prezidenti cənab İlham Əliyev Ulu Öndərin siyasi kursunu uğurla davam etdirərək dünya ölkələrində Azərbaycanın mövqelərini daha da möhkəmləndirdi. Birinci vitse-prezident Mehriban Əliyeva bu sahədə məqsədyönlü iş aparmaqdadır. Azərbaycan həqiqətlərinin dünyaya yayılmasında diasporumuzun, alimlərimizin, idmançılarımızın, mədəniyyət və incəsənət xadimlərimizin fəaliyyəti öz səmərəsini verdi.

Bir fakt gətirək ki, hazırda dünyada 195 dövlətin 160-dan çoxu Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. Hətta elə dövlətlər var ki, Azərbaycan öz torpaqlarını müharibə yolu ilə azad etməli olsa hərbi dəstək verməyə hazır olduqlarını da bildirirlər. Dünyanın bir çox ölkələrinin, o cümlədən ABŞ-ın 23 ştatının Xocalı soyqırımını tanıması Azərbaycanın beynəlxalq miqyasda nəhəng işlər apardığını təsdiq edir. Qısaca desək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətləri təfərrüatları ilə dünya ictimaiyyətinə çatdırmışıq. Dünya ictimaiyyəti Azərbaycanın ədalətli mövqeyini bəyənir və dəstəkləyir. Ancaq bəzi dövlətlərin və beynəlxalq dairələrin xristian təəssübkeşliyinə arxalanan Ermənistan rəhbərləri hələlik inad göstərirlər. Təbii ki, bizim də səbrimizin həddi var. Əgər münaqişə sülhlə həll olunmasa, onda ermənilər dördgünlük aprel müharibəsində onların qoşunlarına dəhşət yaşadan rəşadətli Azərbaycan Ordusunun gücünü bir daha görməli olacaqlar.

**Vəli İlyasov, "İki sahil"**

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi müsabiqəyə təqdim olunur.*

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Kompleks Qazma İşləri Tresti

**Keçiricilərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26048-19) üzrə zərflərin açılışı tarixinin uzadıldığını elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 12.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 19.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 90 (doxsan) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 50%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti

**Əlaqələndirici şəxs:**
Hüseynov Anar
Kompleks Qazma İşləri Tresti, Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon: (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 19.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Kompleks Qazma İşləri Tresti

**Məişət mallarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (№ 26041-19) üzrə zərflərin açılışı tarixinin uzadıldığını elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifinin təminatı;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 12.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin elektron surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 19.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqə təklifinin təminatı:***
Müsabiqə təklifinin təminatı, bank qarantiyası formasında iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə, 19.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Müvafiq təminatı təqdim edilməyən təklif rədd ediləcəkdir.

Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə sorğu verməlidir.

***IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu əldə etmək istəyənlər əlaqələndirici şəxsə iştirak haqqının ödənilməsi barədə bank sənədini və müraciət məktubunu (elektron və ya çap) təqdim etməklə əsas şərtlər toplusunu (elektron və ya çap) Azərbaycan, ingilis və ya rus dilində əldə edə bilərlər.
* Qeyd olunmuş sənədlər elanın I paraqrafında göstərilmiş tarixədək iş günü ərazində saat 09:00-dan 17:30-a kimi təqdim və qəbul edilə bilər.
* İştirak haqqı 118 manat (ƏDV ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutadır və Satınalan təşkilatın aşağıdakı bank hesabına ödənilməlidir:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***V. Təminatlar:***
* Müsabiqə təklifinin təminatı iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə təminat tələb olunur.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunacaqdır.

***VI. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 50%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VII. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VIII. Satınalan təşkilatın ünvanı:***
AZ1033, Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105.
SOCAR, Kompleks Qazma İşləri Tresti
**Əlaqələndirici şəxs:** Hüseynov Anar.
Maddi-texniki təchizat və marketinq şöbəsi, şöbə rəisinin müavini
Telefon: (+99 412) 521-31-59
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***IX. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***X. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 19.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VIII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***XI. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**

iki sahil
VAHİD AZƏRBAYCAN UĞRUNDA!
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
24
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 116 (7371) / Çərşənbə axşamı, 2 iyul 2019-cu il

# Oturaq vəziyyətdə çalışanlar nələrə diqqət etməlidir?



Deyirlər ki, sağlam bədəndə sağlam ruh olar. Bu baxımdan da sağlamlığımızın qorunması çox önəmli məsələdir. Sağlamlığımıza ziyan vuracaq istənilən vərdişdən isə birmənalı şəkildə imtina etməliyik.

Günün əsas hissəsini oturaq vəziyyətdə keçirmək orqanizmin sağlamlığı üçün ciddi təhlükələr yaradır. İş qrafikindən, gündəlik rejimdən asılı olaraq insanların fiziki forması dəyişir. Bəzilərimiz əsasən hərəkətli rejimdə çalışırsa, digərlərimiz isə standart olaraq oturaq rejimdə çalışır.

Masa arxasında fasiləsiz olaraq əyləşmək eyni zamanda çəki artımına da gətirib çıxarır. Həddindən artıq kökəlməyin qarşısını almaq üçün masada yüngül və az kalorili qəlyanaltılar saxlaya bilərsiz. Yadda saxlamaq lazımdır ki, masada yüksək kalorili qidaların olması hərəkətsizliklə yanaşı, kökəlməyə və müxtəlif xəstəliklərin yaranmasına gətirib çıxarır.

Buna görə də oturaq vəziyyətdə çalışan insanlar diqqətli olmalıdır. Belə ki, ofis işçiləri demək olar ki, günün üçdə bir hissəsini masa arxasında çalışaraq keçirirlər. Bu səbəbdən də belə insanlar tez-tez boyun, bel, göz, baş ağrılarından şikayət edirlər. Kompyuterlə çalışan insanlar göz ağrılarından xilas olmaq üçün ilk növbədə 20 dəqiqədən bir 20 saniyə fasilə verməlidir. Daha çox 6 metr uzaqlığa baxmağınız məsləhət görülür. Bel ağrıları zamanı lazımi tədbirlər görülməsə, bu, ciddi problemlərə gətirib çıxara bilər. Bu kimi halların qarşısını almaq üçün əyləşdiyiniz stul masaya nə çox yaxın, nə də çox uzaq olmalıdır. Əgər stul masaya çox uzaq olarsa, bu, belinizin əyilməsinə, yaxın olarsa, stresə gətirib çıxarır. Boyun ağrısı problemi yaşayan şəxs sadə idman hərəkətləri etməklə bundan canını qurtara bilər. Oturaq şəkildə boynunuza etdiyiniz masaj hərəkətləri çox faydalıdır. Həmçinin masa arxasında oturarkən işə ara verərək qalxıb gəzmək lazımdır. Baş və boyun düzgün vəziyyətdə olmalıdır.

✍ **Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# NASA yeni planet kəşf etdi

NASA-nın "TESS" peyki dünyadan 35 milyon işıq ili uzaqda bu günə qədər müşahidə edilən ən kiçik planeti kəşf edib.

Milli.Az ölkə.az-a istinadən bildirir ki, bu barədə "The Astronomical Journal" jurnalında məqalə yayımlanıb. Məqaləyə əsasən, "L 98-59B" adlandırılan yeni planet "TESS" tərəfindən kəşf edilən ən kiçik planetdir.

Məqalədə bildirilir ki, "L 98-59B" kəşf edilən üç yeni planetdən biridir. Qeyd edilir ki, planet dünyamızdan 35 milyon işıq ili uzaqda yerləşən "L 98-59" ulduz sisteminin yanında yerləşdiyi üçün belə adlandırılıb.

Günəş sistemindən kənarda kəşf edilən ən kiçik planet isə hələ də "Kepler" teleskopu vasitəsilə kəşf edilən "Kepler-37-b" planetidir.



## "Atletiko"dan ayrılan futbolçu "İnter"də



İtaliyanın "İnter" klubu yeni transferini açıqlayıb.

Milli.Az klubun saytına istinadən xəbər verir ki, Milan təmsilçisi Madrid "Atletiko"sundan ayrılan uruqvaylı müdafiəçi Dieqo Qodini transfer edib. 33 yaşlı futbolçu ilə 3 illik müqavilə imzalanıb. Qodinin illik maaşı 6,75 milyon avro olacaq.

Uruqvay millisinin üzvü 2009-2019-cu illərdə "Atletiko"da çıxış edib.

## PSJ Neymarın alternativini tapdı

Fransanın PSJ klubu Neymarın komandadan ayrılacağı təqdirdə transfer edəcəyi futbolçunu müəyyənləşdirib.



Milli.Az bildirir ki, PSJ klubu ötən mövsüm "Lill"də göstərdiyi oyunla diqqətləri üzərinə cəlb edən Nikolas Pepeni hədəfləyib.

Qeyd edək ki, "İnter" və "Liverpul"un da hədəfində olduğu iddia edilən 23 yaşlı vinger üçün "Lill" 90 milyon avro təzminat tələb edir.

# Ən isti ayın payız "sifəti"



Bu gün ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Milli.Az-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında iyulun 2-də hava yağmursuz keçəcək, mülayim cənub-qərb küləyi əsəcək.

Havanın temperaturu Abşeron yarımadasında gecə 18-21, gündüz 25-30, Bakıda gecə 18-20, gündüz 27-29 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi 764 mm civə sütunundan 761 mm civə sütununa enəcək, nisbi rütubət gecə 65-75, gündüz 40-45 faiz olacaq.

Abşeron çimərliklərində gözlənilən hava şəraitinə gəlincə, şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) mülayim cənub-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu 22-23 dərəcə isti təşkil edəcək. Cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) mülayim cənub-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu 23-24 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında bu gün hava əsasən yağmursuz keçəcək, lakin gecə və səhər bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Qərb küləyi arabir güclənəcək.

Havanın temperaturu gecə 16-21, gündüz 30-35, dağlarda gecə 7-12, gündüz 16-21 dərəcə isti təşkil edəcək.

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın "Azəriqaz" İB-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Tikinti üzrə rəis müavini Hikmət Həsənova, qayınanası

**Gövhər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Layihələrə texniki nəzarət və ekspertiza şöbəsinin rəisi Pərviz Həsənova, atası

**Adil Həsənovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Neftqaztikinti" Trestinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Tikinti üzrə rəis müavini Hikmət Həsənova, qayınanası

**Gövhər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

TƏSİSÇİ: SOCAR

Baş redaktor: **Vüqar RƏHİMZADƏ**
Baş redaktorun I müavini: **İsmayıl HACIYEV**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
**Kod №** 200071
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* **530-26-46, 430-87-97**
*Baş redaktorun I müavini:* **530-26-36**
*FAX:* **430-87-47**
*Mühasibatlıq:* **430-87-27**
*e-mail:* ikisahil@azdata.net

**Ünvan:** AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzetdə *"AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX* informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 02.07.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **7785**
*İndeks:* **0151**, *Sifariş:* **2177**